QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 068 (5540) 10 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# "Azərbaycanda keçirilən seçkilər daim yerli və beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla izlənilib"

*Məzahir Pənahov Rusiyanın aparıcı KİV-lərinin nümayəndələri üçün brifinq keçirib*



Səh 2


AŞPA və ATƏT PA-nın Estoniyadan olan üzvləri Azərbaycanda prezident seçkilərini müşahidə edəcəklər



4

Bakıda "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda birinci beynəlxalq elmi konfransın açılışı olub



3

Rəşid Alimov: "Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak edir"



4

Müdafiə Nazirliyi: Ermənistan ordusunun təxribatının qarşısı qətiyyətlə alınacaq



5

Bayram günləri İrandan ölkəmizə 70 mindən çox turist gəlib



6

Ermənilərin aprel etirafları...



8

9

"Armeniareport": Ermənistanın siyasi elitası yalan təbliğat aparır



11

"The Daily Caller" qəzetində Ermənistanda kədərli vəziyyət barədə məqalə dərc edilib



11

Serjik gedir və qalır...



# "Azərbaycanda keçirilən seçkilər daim yerli və beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla izlənilib"

*Məzahir Pənahov Rusiyanın aparıcı KİV-lərinin nümayəndələri üçün brifinq keçirib*

***Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov aprelin 9-da Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq keçirib.***



AZƏRTAC xəbər verir ki, Məzahir Pənahov Azərbaycanda keçirilən seçkilərin daim yerli və beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla izlənildiyini söyləyib. O deyib ki, ölkəmizdə seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün hər cür şərait mövcuddur. Yerli və beynəlxalq müşahidəçilərin, yerli və xarici kütləvi informasiya vasitələrinin, o cümlədən digər aşkarlıq institutlarının azad və sərbəst şəkildə fəaliyyət göstərmələri üçün bütün şərait yaradılıb. Seçkilərdə "exit-poll" keçirmək məqsədilə MSK-ya ünvanlanmış bütün müraciətlər müsbət qarşılanıb. Əksər seçki məntəqələrində veb-kameralar quraşdırılıb. Bu isə dünyanın istənilən yerində olan internet istifadəçilərinə hətta Azərbaycana gəlmədən, seçki məntəqəsində olmadan MSK-nın internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan seçki günü birbaşa onlayn rejimdə səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsi proseslərini əvvəldən axıradək fasiləsiz izləməyə imkan yaradır. MSK başda olmaqla bütün seçki komissiyaları prezident seçkilərinin azad və ədalətli keçirilməsi üçün tam hazırdır. Seçki günü Azərbaycan vətəndaşları heç bir maneə olmadan, azad və sərbəst şəkildə seçki məntəqələrinə gedərək öz iradələrini ifadə edə bilərlər.

MSK sədri, namizədlər üçün yaradılan şərait, həmçinin Azərbaycan Respublikasının seçki sistemi, seçki qanunvericiliyi və seçki praktikasının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı layihələr barədə xarici jurnalistlərə ətraflı məlumat verib, onları maraqlandıran sualları cavablandırıb.

# Şanxay Əməkdaşlıq Təşkilatının nümayəndələri prezident seçkilərinə hazırlıq işləri barədə məlumatlandırılıblar

Aprelin 9-da Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Alimovun rəhbərlik etdiyi nümayəndə heyəti Mərkəzi Seçki Komissiyasında olub. AZƏRTAC xəbər verir ki, Rəşid Alimov seçkilərdə müşahidəçi qismində iştirak edəcək nümayəndə heyətinin tərkibi ilə bağlı məlumat verib. O bildirib ki, təmsil etdiyi nümayəndə heyətinin tərkibi bu sahədə peşəkarlardan ibarətdir. Onlar MDB ölkələrinin bir çoxunda seçkiləri müşahidə ediblər. Baş katib Şanxay Əməkdaşlıq Təşkilatının müşahidəçilərinin seçkilərin nəticələrinə obyektiv rəy verəcəklərini söyləyib.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov qonaqlara aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərinə hazırlıq işləri barədə məlumat verib, onların suallarını cavablandırıb.



## Ukrayna və Türkiyə birgə enerji layihələrində iştirak etmək niyyətindədir



Ukrayna və Türkiyə birgə enerji layihələrində iştirak etmək niyyətindədir. AZƏRTAC Ukrayna Prezidentinin mətbuat xidmətinə istinadla xəbər verir ki, bu məsələ Prezident Petro Poroşenko ilə Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan arasında Ankarada keçirilən görüşdə müzakirə olunub.

Görüşdə, həmçinin Türkiyə-Ukrayna arasında yeddinci Yüksək Səviyyəli Strateji Şuranın iclasına hazırlıq, iqtisadi-ticarət və investisiya sahələrində qarşılıqlı əməkdaşlıq müzakirə olunub. Müzakirələr zamanı Türkiyə-Ukrayna-Qətər üçtərəfli formatın yaradılmasının vacibliyi də qeyd olunub.



Pakistan OBSERVER

TOP NEWS LATEST NATIONAL CITY OPINION BUSINESS SPORTS WORLD CPEC E-PAPER

World

Presidential election on Wednesday beginning of new era

Shahid Ali Butt

Baku, Azerbaijan

The legislators and common citizens on Sunday said the presidential election scheduled for April 11 means beginning of a new era development and prosperity for the citizens.

Azerbaijan is keeping pace with European countries in conduct of elections. The world community shows great interest in Azerbaijan and keeps the upcoming presidential election in the spotlight. A Member of Azerbaijani parliament's committee on international relations and inter-parliamentary ties, Chairman of the Party of Democratic Reforms, Asim Mollazade said.

In a statement issued here, he said political parties and candidates involved in the election may freely convey their platforms to public.

He said, "Those who are not involved in elections were also provided with the opportunity to freely express their views which means protection of democratic principles. "We will be witnessing free and fair elections on April 11," Asim Mollazade said.

During a visit to different places, common citizens told APP that prudent policies of President Ilham Aliyev have put the country on right path, hoping his win again in election on Wednesday would mean consistency in policies and more foreign investment.

People of Azerbaijan want development and in shape of incumbent President we are witnessing this, they said.—APP

# Azərbaycanda keçiriləcək prezident seçkiləri Pakistan mətbuatının diqqətində

Aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri Pakistanın nüfuzlu kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, ingilisdilli "Daily Times" və "Pakistan Observer" qəzetlərində dərc olunmuş məqalələrdə ölkəmizdəki seçkiqabağı vəziyyət, seçkilərə hazırlıqla bağlı görülmüş işlər barədə ətraflı məlumat verilir.

Məqalələrdə Azərbaycanda aprelin 11-də keçiriləcək prezident seçkilərinin ölkənin inkişafında yeni mərhələnin başlanğıcı olacağı vurğulanır. Bildirilir ki, xaricdə yaşayan Azərbaycan vətəndaşlarının səs vermələri üçün 41 seçki məntəqəsi yaradılıb. Bununla da ölkə ərazisindən kənarda olan Azərbaycan vətəndaşları rahat şəkildə səs verə biləcəklər. Qeyd edilir ki, seçki məntəqələrində 1000 veb-kamera quraşdırılıb və bu da seçkilərin demokratik və şəffaf keçirilməsinə kömək edəcək. Görülən işlər Azərbaycanın budəfəki seçkiləri daha mütəşəkkil və şəffaf keçirmək niyyətindən xəbər verir.

Diqqətə çatdırılır ki, prezident seçkilərini izləmək üçün 870-dən çox beynəlxalq müşahidəçi Mərkəzi Seçki Komissiyasında akkreditasiyadan keçib və onlar 58 beynəlxalq təşkilatı təmsil etməklə 59 ölkənin vətəndaşlarıdır. İndiyədək 56 min 864 yerli müşahidəçi akkreditasiyadan keçib. Onlardan 1962-si MSK-da akkreditasiyadan keçərək bütün ölkə ərazisində, 54 min 902-si isə dairə seçki komissiyalarında akkreditasiyadan keçərək müvafiq dairənin hüdudları daxilində müşahidə aparmaq hüququ qazanıb.

Məqalələrdən birində Azərbaycan Milli Məclisinin deputatı, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadənin sechki-2018.az saytına açıqlamasından fikirlərə yer verilir. Bildirilir ki, Azərbaycanda seçkiöncəsi mühit demokratik prinsipləri özündə əks etdirir. Ölkədə hökm sürən sabitlik, təkmilləşdirilmiş seçki qanunvericiliyi şəffaf və ədalətli seçkilərin keçirilməsi üçün lazım olan əsas amillərdir. Seçkidə iştirak etməyənlərə də fikirlərini sərbəst şəkildə ifadə etmək şəraiti yaradılıb. Bu, beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilən demokratik prinsiplərin qorunması deməkdir. Seçkiöncəsi proses normal şəkildə davam edir. Heç bir pozuntu qeydə alınmayıb, seçkidə iştirak edən subyektlərin narazılığı yoxdur.

Digər məqalədə isə Dünya Azərbaycanlıları Konqresi İcra Aparatının rəhbəri, Beynəlxalq Diaspor Mərkəzi sədrinin birinci müavini Samir Adıgözəllinin sechki-2018.az saytına müsahibəsindən fikirlər əksini tapır. Vurğulanır ki, Azərbaycan indiyədək seçkilərin keçirilməsi ilə bağlı böyük uğurlar əldə edib. Bu ölkənin əvvəlki illərdə qazandığı beynəlxalq seçki təcrübəsi onu deməyə əsas verir ki, Azərbaycan bu sahədə Avropa dövlətləri ilə tam ayaqlaşır.

Qazaxıstan Xalqları Assambleyası sədrinin müavini Əbülfəz Xamedovun sechki-2018.az saytına açıqlamasından fikirlərə yer verilən məqalədə prezident seçkilərinin Azərbaycanda yeni mərhələnin başlanğıcı olacağı diqqətə çatdırılır. Azərbaycanda beynəlxalq standartlara uyğun seçki sisteminin olduğu vurğulanır.






# Bakıda "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda birinci beynəlxalq elmi konfransın açılışı olub

***Aprelin 9-da Azərbaycan Dillər Universitetində (ADU) ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilən "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda birinci beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin universitetin foyesindəki büstünün önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.***

Tədbirdə universitetin rektoru, akademik Kamal Abdulla bildirib ki, konfrans ADU-nun, Yeni Azərbaycan Partiyasının (YAP) və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) birgə təşkilatçılığı ilə keçirilir. ADU-nun tarixində belə mötəbər tədbirin ilk dəfə təşkil olunduğunu deyən K.Abdulla vurğulayıb ki, konfransın keçirilməsinin məqsədi ümummilli lider Heydər Əliyevin Azərbaycan multikulturalizmi sahəsində gördüyü işləri təbliğ etməkdir. Tədbir, həmçinin universitetlər, mütəxəssislər və tələbələr arasındakı əlaqələrin möhkəmlənməsinə xidmət edir. Rektor bildirib ki, konfransın bölmə iclaslarının təşkil olunacağı xarici universitetlərlə danışıqlar aparılıb və birgə fəaliyyət proqramı hazırlanıb. Hər bölmədə Azərbaycan alimlərinin və Bakıda yekun plenar iclasda xarici universitet rektorlarının və nümayəndələrinin iştirakı nəzərdə tutulub. Bu layihə qeyri-adiliyi ilə həm universitetlərarası münasibətlərin formalaşmasına, həm Ulu Öndərin ideyalarının Avropa və Asiyada bir daha yayılmasına, həm də azərbaycançılıq ideologiyasının yeni formatda inkişafına təkan verəcək.

Azərbaycan multikulturalizmi fənninin xaricdə tədrisi məsələsinə toxunan K.Abdulla qeyd edib ki, Azərbaycan dili, mədəniyyəti və multikulturalizminin dünyada tanıdılması istiqamətində ADU bir sıra uğurlara nail olub. Belə ki, universitetin əməkdaşlıq etdiyi bir sıra xarici ali məktəblərdə Azərbaycan dili və mədəniyyəti mərkəzləri açılıb.

"Qaudeamus" tələbə himnini səsləndirdikdən sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Heydər Əliyev ideyalarının və ölkəmizdəki multikultural dəyərlərin dünyada tanıdılması baxımından konfransın əhəmiyyətini vurğulayıb. Azərbaycanın tolerant ölkə olduğunu, milli mənəvi və dini dəyərlərə ölkəmizdə çox böyük önəm verildiyini, dini mənsubiyyətindən asılı olmayaraq, hər kəsin azad fəaliyyəti üçün dövlət tərəfindən bütün imkanların yaradıldığını bildirən M.Qurbanlı qeyd edib ki, bütün bunların əsasını ulu öndər Heydər Əliyev qoyub.

Dünyada cərəyan edən qlobal təhlükələrdən danışan təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, Azərbaycan bu problemlərin həllini multikulturalizmdə görür. Bu gün Azərbaycanda yaşayan milli azlıqların nümayəndələri öz ana dillərində sərbəst danışırlar. Bir çox ali və orta məktəblərdə ana dillərinin işlənilməsi təmin olunur, adət-ənənələrə hörmətlə yanaşılır.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru vəzifəsini icra edən Rəvan Həsənov bildirib ki, tədbirin ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilməsi təsadüfi deyil. Çünki xalqımız multikultural mühitdə yaşadığı üçün Ulu Öndərə borcludur.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik İsa Həbibbəyli ən qədim zamanlardan ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin birgə yaşadığını deyib. Ölkəmizdəki möhkəm multikultural dayaqlara malik tolerant mühitin müasir inkişafın əsas göstəricilərindən olduğunu bildirən akademik deyib ki, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyası özündə ölkədəki bütün xalqların və etnik qrupların birliyini, həmrəyliyini əks etdirir. Ulu Öndərin dövlət siyasəti səviyyəsinə qaldırdığı azərbaycançılıq ideologiyası multikulturalizm və tolerantlıq fəlsəfəsinin əsasını təşkil edir. Ölkəmizdə yaşayan bütün xalqları onların eyni dərəcədə inandığı və hörmət etdiyi vahid ideologiya - azərbaycançılıq ətrafında birləşdirmək müstəqil dövlətimizin mühüm nailiyyətidir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov ölkəmizdəki millətlərarası münasibətlər haqqında tədbir iştirakçılarına məlumat verib. O, ölkədə yaşayan milli azlıqların sosial, iqtisadi və mədəni məsələlərinin Azərbaycan Respublikasının multikulturalizm siyasəti çərçivəsində yüksək səviyyədə həll olunduğunu qeyd edib. Əsrlərboyu Azərbaycanın tolerant bir ölkə olduğunu qeyd edən E.Nəcəfov burada milli azlıqların etnikmədəni dəyərlərinin qorunması istiqamətində dövlət tərəfindən mühüm işlərin görüldüyünü vurğulayıb.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Hindistanın Azərbaycandakı səfiri Sancay Rana ölkəmizin multikulturalizm və tolerantlıq dəyərlərindən, ümummilli lider Heydər Əliyevin xalqımızın digər millətlərlə birgə yaşayışının təmin edilməsi, millətlərarası münasibətlərin tənzimlənməsi istiqamətində rolundan danışıblar. ADU-nun tələbəsi, "xəlifə" rektor Nicat Aşurov və magistrant Leyla Cəfərova konfransın tələbələrin həyatında mühüm rol oynayacağını vurğulayıblar.

Sonda konfransın bölmə iclaslarının keçiriləcəyi universitetlərin rektorlarının videotəbrikləri təqdim olunub və ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx göstərilib. Mayın 5-dək davam edəcək konfransın plenar və yekun iclasları ADU-da, bölmə iclasları isə bu ali məktəblə yanaşı, müxtəlif ölkələrin müvafiq qabaqcıl universitetlərinin bazalarında təşkil olunacaq. Bölmələr Türkiyənin Ərciyəs Universitetində "Müasir Azərbaycan: sosial, siyasi və iqtisadi inkişafı" və Ərzurum Universitetində "Heydər Əliyev və türk dünyası", Rusiya Federasiyasının Boris Yeltsin adına Ural Federal Universitetində "ADR - Şərqdə ilk demokratik respublikadır", A.S.Puşkin adına Dövlət Rus Dili İnstitutunda "Sərhədlərin fövqündə: Rusiya və Azərbaycan: mədəniyyətlərarası dialoq təcrübəsi", Moskva Dövlət Linqvistika Universitetində "Dillərin və mədəniyyətlərin dialoqu çoxqütblü dünyada birgəyaşayışın amili kimi", Moskva Şəhər Pedaqoji Universitetinin Samara filialında "Multikulturalizm və Rusiya azərbaycanşünaslığı", Ukraynanın Kiyev Milli Linqvistika Universitetində "Azərbaycan-Ukrayna münasibətlərinin inkişafında Heydər Əliyevin rolu", Belarusun Minsk Dövlət Linqvistik Universitetində "Heydər Əliyev və Azərbaycan-Belarus münasibətləri", Serbiyanın Belqrad Universitetində "Multikulturalizmin Azərbaycan təcrübəsi", Gürcüstanın Tbilisi Dövlət Universitetində (Batumi, Kutaisi, Qori, Telavi universitetləri, Gürcüstan Elmlər Akademiyasının müvafiq institutları və "Bilik" cəmiyyətinin iştirakı ilə) "Azərbaycan-Gürcüstan münasibətlərinin təşəkkülündə Heydər Əliyevin rolu", Çinin Xucjou Universitetində "Bir qurşaq - bir yol: multikulturalizmin öyrənilməsi", İtaliyanın Kassino Cənubi Latsio Universitetində (Sülh və Təhlükəsizlik Fondu, Üçüncü Roma Universiteti, Genuya Universiteti, Link Kampus Universiteti, Fransanın Nim Universiteti, Moldovanın Beynəlxalq Menecment Universitetinin iştirakı ilə) "Multikulturalizm, sosial təhlükəsizlik, immiqrasiya, azadlıq", Almaniyanın Ausburq Universitetində "Azərbaycan və Almaniya multikulturalizmi" mövzularında keçiriləcək.

## Fransanın nüfuzlu "Mezzo" telekanalında ölkəmizlə bağlı süjet yayımlanıb

Mədəniyyət və Turizm Nazirliyi ölkəmizin mədəniyyətini, incəsənətini, tarixi irsini, təbii gözəlliklərini və zəngin milli mətbəxini dünyada təbliğ etmək üçün davamlı layihələr həyata keçirir. Bu fəaliyyətin mühüm bir istiqaməti də nüfuzlu xarici telekanallarda ölkəmizlə bağlı tanıtım çarxlarının yayımlanmasıdır. Nazirliyin sifarişi ilə hazırlanan növbəti belə videoçarxın nümayişi aprelin 9-da Fransanın "Mezzo" telekanalında yayımlanmağa başlanıb.

AZƏRTAC xəbər verir ki, ölkəmizin memarlığının, təbiətinin və mətbəxinin zənginliyinin əks olunduğu videoçarxda dünya şöhrətli bəstəkarımız Fikrət Əmirovun məşhur "Azərbaycan kapriççiosu" əsərinin musiqisindən istifadə olunub. Videoçarxın təsviri Bakıdan, gecə vaxtı işıqları sayrışan Alov qüllələrindən başlayaraq, Qəbələ musiqi festivalının açıq hava səhnəsində orkestrin ifası ilə davam edir. Möhtəşəm musiqinin sədaları altında tamaşaçı yaşıl donlu dağlar qoynuna "yollanır", yenidən Bakıya qayıdır, fərqli rakursdan Azərbaycan Dövlət Akademik Filarmoniyasının binasını, Qız qalasını seyr edib, "İçərişəhər"dəki qədim bazar abidə kompleksindəki heykəllər, milli balet nümunəsi ilə tanış olur. Ardınca Şəki Xan sarayının rəngli şüşəli pəncərələrindən ətrafı seyr edib, milli mətbəximizin ən ləziz yeməklərindən olan yarpaq dolmasının hazırlanmasını izləyir. Hazır xörək isə ona adi masada deyil, Azərbaycan xalçasının üstündə təqdim edilir. Bunun ardınca sanki Azərbaycan Xalça Muzeyində qorunan "sehrli xalça" ilə səyahətə çıxaraq "İçərişəhər"də mənzil başına çatır. Reklam çarxı tamaşaçıda ölkəmizin görməli yerləri, mədəni irsi barədə yaddaqalan təsəvvür yaradır.

Qeyd edək ki, "Mezzo" televiziya kanalı 1992-ci ildən yayımlanır. Telekanal klassik musiqi, caz, musiqili folklora xüsusi yer verir. Kanal əsasən konsertlər, festivallar zamanı canlı yayımda lentə alınmış musiqi proqramlarını nümayiş etdirir. Yayım şəbəkəsinə konsert, opera və balet tamaşalarının canlı yayımı, eləcə də musiqi və ifaçılar haqqında sənədli filmlər daxildir.

## Səyavuş Heydərov: Dini təhlükəsizlik milli təhlükəsizliyimizin başlıca tərkib hissəsidir



Ən qədim sivilizasiya mərkəzlərindən biri olan Azərbaycan həmişə müxtəlif millətlərin və dinlərin sülh şəraitində birgə yaşayışı baxımından nümunə olub. Ölkəmizdə milli-mənəvi və dini dəyərlərin zəngin inkişaf tarixi və ənənələri var. Hazırkı mərhələdə ölkədə bərqərar edilmiş milli və dini tolerantlıq, eləcə də multikulturalizm mühitinin qorunması və möhkəmləndirilməsi dövlət qarşısında duran başlıca vəzifələrdən hesab olunur. Lakin qeyd olunmalıdır ki, bu gün sürətlə dəyişən və ziddiyyətli təzahürləri ilə qloballaşan dünyada son dərəcə mürəkkəb proseslər baş verir. Yaşamaqda olduğumuz müasir gerçəklik gələcəyi proqnozlaşdırmadan, qlobal çağırışları qiymətləndirmədən uğurlu inkişafa nail olmağın qeyri-mümkünlüyünü diktə edir. Məhz belə bir şəraitdə dövlətin dayaqlarının güclü olması, idarəetmədə praqmatik, uzaqgörən, düşünülmüş və strateji siyasətin həyata keçirilməsi son dərəcə zərurətə çevrilib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov deyib.

Komitənin sədr müavini bildirib ki, Azərbaycana nəzər saldıqda bu zərurət daha qabarıq formada özünü büruzə verir. Bunu bir sıra amillərlə səciyyələndirmək mümkündür. Belə ki, Azərbaycan uğurlu inkişaf modelini tətbiq edən mütərəqqi yanaşmalara sahib olmaqla yanaşı, tarixinə və dəyərlərinə sadiq olan müsəlman ölkəsidir. Şübhəsiz ki, bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi edən, ictimai-siyasi sabitliyi təmin etmiş, günü-gündən müasirləşən və nüfuzu artan bir müsəlman ölkəsini istəməyən qüvvələr də az deyil. Belə ki, Azərbaycanın öz multikultural dəyərləri ilə dünyada islamofobiya adı altında müsəlman ölkələrinə yönəlmiş tənqid və etirazları puça çıxarması ölkəmizə qarşı təhdid və təzyiqlərin daha da artması ilə nəticələnib. Təəssüf doğuran məqamlardan biri də budur ki, bəzi İslam ölkələri daxilində də bu məkrli niyyətlərə dəstək verən qüvvələr mövcuddur.

Olduqca mürəkkəb, qlobal güclərin maraqlarının bir çox sferada toqquşduğu, habelə siyasi iddiası böyük olan dövlətlərin mübarizə meydanına çevrilən regionda yerləşən ölkəmizə qarşı bir sıra istiqamətlərdən, o cümlədən dini mövqedən təhdidlərin səngiməmiyi müşahidə olunur. Bu kontekstdə ən önəmli amillərdən biri də dini təhlükəsizlik məsələsidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli təhlükəsizlik konsepsiyasının başlıca komponentlərindən biri məhz dini təhlükəsizlikdir. Qeyd edilən fenomen İslam ölkələri baxımından daha da aktualdır. Yaxın Şərq təcrübəsi və orada hazırda davam edən proseslər bir daha açıq şəkildə göstərdi ki, dini təhlükəsizlik təmin olunmadan milli təhlükəsizliyi təmin etmək qeyri-mümkündür. Milli təhlükəsizlik təmin edilmədən isə nə ictimai-siyasi sabitlikdən, nə demokratiyanın inkişafından, nə də hüquq və azadlıqların təmin edilməsindən bəhs etmək olar. Sistemləşdirərək deyə bilərik ki, dini təhlükəsizlik milli təhlükəsizliyin başlıca tərkib hissəsidir. Azərbaycan mürəkkəb beynəlxalq vəziyyətə, regionda mövcud olan təhdidlərə, müxtəlif səpkili təzyiqlərə, yad dini ideologiyaların idxal edilməsi cəhdlərinə baxmayaraq, güclü siyasi iradə nümayiş etdirərək dini təhlükəsizliyi təmin edib və bu siyasətin hazırkı dövrdə davam etdirilməsi son dərəcə vacibdir.

Yuxarıda qeyd edilənlərə əsaslanaraq perspektivdə təhlükə və təhdidlərin artan xətlə və daha aqressiv şəkildə inkişaf edəcəyi şübhə doğurmur. Başda erməni lobbisi olmaqla ölkəmizə qarşı məkrli niyyətləri olan qlobal güclər antimilli qüvvələrlə birləşərək güclənən dövlətimizə qarşı siyasi, dini və digər mövqelərdən davamlı şəkildə təxribat xarakterli çirkin kampaniyalar aparırlar. Azərbaycanın nüfuzu, iqtisadi uğurları artdıqca bütün sahələr üzrə bu tipli kampaniyalar daha da arta bilər. Belə olan şəraitdə ölkəmizin xüsusilə təhlükəsizlik sahəsində çevik, dəqiq, operativ və balanslaşdırılmış siyasətə ehtiyacı əvvəlki illərə nisbətdə daha çoxdur. Aparılan təhlillər, dünya ölkələrinin praktik təcrübəsi onu göstərir ki, sadalanan təhdid və təhlükələrlə mübarizə aparmaq və bu mübarizədə nəticə əldə etmək üçün güclü dövlət - güclü rəhbər tandemi birinci şərtdir. Möhkəm siyasi iradə, qətiyyətli mövqe, xalqla birlik, analitik təfəkkür, beynəlxalq nüfuz, gələcəyə dair mütərəqqi baxış və idarəçilik təcrübəsi lider-rəhbər portretinin başlıca komponentləridir. Əgər güclü dövlət-güclü rəhbər tandemi pozularsa, böyük zəhmət nəticəsində əldə edilmiş ictimai-siyasi sabitlik, ümumilikdə milli təhlükəsizliyimiz, habelə ölkəmizin rifahı və uğurlu gələcəyi qlobal təhdidlər və təhlükələrlə üzləşə bilər.

## AŞPA və ATƏT PA-nın Estoniyadan olan üzvləri Azərbaycanda prezident seçkilərini müşahidə edəcəklər




Estoniyanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri Marianne Mikko və Estoniyanın Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvləri Yaanus Marrandi və Uno Kaskpeyt Azərbaycanda prezident seçkilərini müşahidə edəcəklər.

Y.Marrandi estoniyalı jurnalistlərlə söhbətində deyib: "Azərbaycan İranla Rusiya arasında mürəkkəb geosiyasi məkanda yerləşir". Onun sözlərinə görə, son illər ölkənin beynəlxalq imici yüksəlib, Avropa İttifaqı ilə münasibətlər yaxşılaşıb. Y.Marrandi daha sonra deyib: "Son illər neftin qiymətlərinin hiss olunacaq dərəcədə düşməsi ölkəni iqtisadi islahatlar üçün yeni imkanlar axtarmağa vadar edib".

ATƏT seçkiləri 1990-cı ildən Kopenhagen sənədi əsasında müşahidə edir.



## Rəşid Alimov: "Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak edir"

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Rəşid Alimovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, baş katib Rəşid Alimov Şanxay Əməkdaşlıq Təşkilatının ölkəmizdə keçirilən prezident seçkilərini müşahidə etməsi üçün yaradılan şəraitə görə təşəkkürünü ifadə edib, bununla əlaqədar məhsuldar görüşlər keçirdiklərini, seçkiqabağı mühitlə yaxından tanış olduqlarını və seçkilərin müşahidəsi üçün lazımi hazırlıq tədbirləri gördüklərini deyib.

Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının dialoq tərəfdaşı olduğunu bildirən baş katib son dövrlər ölkəmizin təşkilat çərçivəsində keçirilən mədəni və ictimai tədbirlərdə fəal iştirakını təqdir edib.

Şanxay Əməkdaşlıq Təşkilatı ilə Azərbaycan arasında əlaqələrin inkişafına göstərdiyi dəstəyə görə baş katib R.Alimova təşəkkürünü bildirən nazir Elmar Məmmədyarov Azərbaycanın təşkilatla əməkdaşlığı daha da genişləndirmək və keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətində olduğunu vurğulayıb.

Nazir Elmar Məmmədyarov Azərbaycanın ŞƏT-ə üzv dövlətlərlə ikitərəfli səviyyədə dostluq və tərəfdaşlıq əlaqələrinə malik olduğunu qeyd edərək ölkəmizin iştirakı ilə həyata keçirilən Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb nəqliyyat dəhlizi layihələrinin ŞƏT çərçivəsində əməkdaşlıq üçün geniş imkanlar açdığını diqqətə çatdırıb. Görüşdə ŞƏT haqqında Azərbaycan ictimaiyyətində məlumatlandırmanın artırılması və ictimai diplomatiya təyinatlı layihələrin həyata keçirilməsi məsələsinə də toxunulub. Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Niderlandda yaşayan azərbaycanlılar həmrəylik aksiyası keçiriblər

Avropa Azərbaycanlıları Konqresinin və Benilüks Azərbaycanlıları Konqresinin birgə təşkilatçılığı ilə ölkəmizin Niderland Krallığının Haaqa şəhərindəki səfirliyi qarşısında azəbaycanlıların həmrəylik aksiyası keçirilib. AZƏRTAC xəbər verir ki, aksiyada Niderland Krallığında yaşayan 100-ə yaxın soydaşımız iştirak edib.

Aksiyada çıxış edənlər Azərbaycanın sürətlə inkişaf etdiyini bildirib, ölkəmizdə gedən demokratik prosesləri, iqtisadi, siyasi, mədəni və digər sahələrdə əldə olunmuş nailiyyətləri xüsusi vurğulayıblar. Azərbaycanın beynəlxalq səviyyədə nüfuzunun getdikcə artdığı, regionun lider dövləti kimi qlobal əhəmiyyətli layihələrdə aparıcı rol oynadığı diqqətə çatdırılıb. Aksiya iştirakçıları anti-Azərbaycan qrupların Azərbaycan dövləti əleyhinə fəaliyyətini pisləyərək, bunun ölkəmizin imicinə xələl gətirdiyini bildiriblər.



Qeyd edilib ki, Avropada yaşayan bir neçə şəxs xaricdə fəaliyyət göstərən diasporumuzu təmsil və ya onun adından çıxış edə bilməz. Aksiya iştirakçıları hər zaman dövlətimizi, onun siyasətini dəstəklədiklərini bəyan ediblər. Aksiya zamanı soydaşlarımız həmişə Azərbaycan ilə olduqlarını, Vətənin adını daim uca tutduqlarını, gücümüzün birliyimizdə olduğunu bildiriblər.

İştirakçılar "Hər zaman, hər yerdə səninləyik, Azərbaycan!", "Vətəndən kənarda Vətənin adını uca tutun!", "Azərbaycan Suriya deyil, olmayacaq da!", "Bizim gücümüz birliyimizdədir!", "Azərbaycan qürurumuzdur. Qürurumuza toxunmayın!", "Fəxr edirik ki, azərbaycanlıyıq!", "Harada yaşamağımızdan asılı olmayaraq, hər zaman Azərbaycan dövlətinin yanındayıq!", "Vətənimizin qüdrəti bizim qürurumuzdur!", "Dövlətimizin və xalqımızın adını uca tutmaqdan şərəf duyuruq!" kimi şüarlar səsləndiriblər.

Aksiya iştirakçıları bəzi anti-Azərbaycan qruplara etirazlarını bildirərək deyiblər: "Təhqir acizlərin son silahıdır. Xaricdə yaşayan hər bir azərbaycanlı Azərbaycan dövləti ilə fəxr edir. Azərbaycanın dövlət rəmzlərini təhqir edənlərə ar olsun. Milli mənafelər şəxsi mənafelərdən öndə dayanmalıdır".

Soydaşlarımız yaşadıqları ölkədən asılı olmayaraq, bütün azərbaycanlıları birləşməyə, ölkəmizdəki dincliyi və sabitliyi qorumağa səsləyərək deyiblər: "Dövlətçilik maraqlarımız ətrafında sıx birləşək. Azərbaycan dövlətində sabitliyə və dincliyə xələl gətirməyə cəhd etməyin".

# "Əl-Ərəb" qəzetində dərc edilmiş müsahibədə Azərbaycan-Qətər münasibətlərinin inkişafından danışılır

***Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılovun bu ölkənin nüfuzlu "Əl-Ərəb" qəzetində geniş müsahibəsi dərc edilib. Səfirlikdən AZƏRTAC-a verilən məlumata görə, müsahibədə Azərbaycan-Qətər münasibətləri, ikitərəfli əməkdaşlığın prioritet məsələləri, Azərbaycandakı mövcud əlverişli investisiya mühiti, turizmin inkişafı və ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı haqqında geniş məlumat verilib.***

Səfir Azərbaycan-Qətər münasibətlərindən danışaraq, son iki il ərzində dövlət başçıları tərəfindən həyata keçirilmiş səfərlərin əməkdaşlığın inkişafına böyük töhfə verdiyini bildirib. Azərbaycan-Qətər siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu, lakin iqtisadi əlaqələrin arzuolunan səviyyəyə çatmadığını bildirən səfir hazırda ikitərəfli münasibətlərdə iqtisadi əməkdaşlığın inkişafının prioritet olduğunu diqqətə çatdırıb. Səfir ölkəmizdə xarici investisiyalar üçün əlverişli şəraitin yaradıldığını, investorların hüquqlarının qorunması üçün lazımi iqtisadi islahatların aparıldığını və müvafiq qanunvericiliyin təkmilləşdirildiyini qeyd edib.



Müsahibədə, həmçinin Azərbaycanın turizm imkanlarından geniş söz açılıb. Qətər Hava Yolları tərəfindən Azərbaycana həftədə 14 uçuşun həyata keçirilməsinin, viza rejiminin sadələşdirilməsinin və ölkəmizin turizm potensialının Qətərdən gələn turistlərin sayının artmasında mühüm rol oynadığı qeyd edilib. Səfir Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qərarların qəbuluna Qətərin verdiyi dəstəyin ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. O, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımının bu il 100 illiyinin qeyd edildiyini vurğulayıb, bu qırğınlara beynəlxalq müstəvidə hüquqi qiymətin verilməməsinin təəssüf doğurduğunu bildirib. O, ərazilərimizin 20 faizinin hələ də işğal altında qaldığını və bir milyon vətəndaşımızın qaçqın vəziyyətində yaşadığını qeyd edib.

# "Al Khaleej": Bakı turist və səyahətçilər üçün cəlbedici istiqamətdir

***Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu mətbuat orqanı olan "Al Khaleej" qəzetində Azərbaycanın turizm cəlbediciliyindən bəhs edən "Bakı - turist və səyahətçilər üçün cəlbedici istiqamətdir" sərlövhəli məqalə dərc olunub.***

AZƏRTAC xəbər verir ki, məqalədə dünyada turizm populyarlığı getdikcə daha da artmaqda olan Bakının görməli yerləri, qədim tarixi və zəngin mədəni-tarixi abidələri barədə geniş məlumat verilir. Qeyd olunur ki, məşhur turizm istiqaməti olan Azərbaycan turistlərə ölkə ilə yaxından tanış olmaq üçün maraqlı tədbirlər və marşrutlar təklif edir.



Məqalədə Xəzərin sahilində, paytaxt Bakıda UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş Şirvanşahlar Sarayı və Qız Qalasının yerləşdiyi İçərişəhər və üstündə 6000 yazısı olan Qobustan qayaları arxeoloji abidə kompleksinə, onların tarixi və mədəni əhəmiyyətinə xüsusi diqqət çəkilir. Müəllif səyahətçilər üçün böyük maraq kəsb edən Azərbaycanın Xalça Muzeyindən, Yanardağ təbiət abidəsindən, palçıq vulkanlarından və ölkədə keçirilən Novruz bayramı şənliklərindən də söhbət açır. Məqalədə müasir Bakının rəmzlərindən biri hesab olunan Heydər Əliyev Mərkəzinə xüsusi diqqət yetirilir və 2012-ci ildə inşa edilən bu bina dünya memarlığının incisi kimi dəyərləndirilir.

# Azərbaycanın Qoşulmama Hərəkatının lider dövlətlərindən birinə çevrilib



Məlum olduğu kimi, bu günlərdə Bakı Konqres Mərkəzində "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransı keçirilib. Bu nüfuzlu beynəlxalq tədbirdə bir sıra aktual qlobal məsələlər geniş müzakirə olunub. Bu zaman çox sayda maraqlı fikir və mülahizələr səsləndirilib, dəyərli təkliflər irəli sürülüb. Qeyd edək ki, tədbirin materialları mediada geniş işıqlandırılıb. Konfrans barədə məlumatlar həm ölkə ictimaiyyətində, həm də yaxın və uzaq xarici ölkələrdə geniş əks-səda doğurub. Konfransın əhəmiyyəti barədə söz düşəndə Dünya Azərbaycanlıları İctimai Mərkəzinin sədri Zaur Mirzə-Zadə bunları dedi:

- Təbii ki, Azərbaycan paytaxtının qlobal əhəmiyyətli belə bir tədbirə ev sahibliyi etməsinə çox sevinirəm. Bu, sıradan bir tədbir deyil. Belə ki, Qoşulmama Hərəkatı yarandığı gündən bu vaxta qədər beynəlxalq sülh və təhlükəsizliyin gücləndirilməsində əsaslı rol oynayıb. Bu gün də hərəkata üzv dövlətlər ortaq prinsip və dəyərləri qoruyub saxlamağa, qarşılıqlı etimadı və əməkdaşlığı gücləndirməyə çalışırlar. Azərbaycanın Qoşulmama hərəkatının lider dövlətlərindən birinə çevrilməsi hamı kimi məni də çox sevindirir. Bakıda tədbirdə iştirak edən bir sıra görkəmli dövlət adamları, nüfuzlu siyasətçilər, mədəniyyət və incəsənət xadimlərinin dilindən səsləndiyi kimi, həqiqətən, bu gün Qoşulmama Hərəkatı beynəlxalq hüququn normalarına, ərazi bütövlüyü prinsiplərinə, bütün özvlərin suverenliyinə və müstəqilliyinə sadiqdir. Görünən budur ki, hərəkat dünyada sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynayır.

Etiraf etmək lazımdır ki, çağdaş dünyada sülhə və təhlükəsizliyə hər zaman olduğundan daha böyük ehtiyac yaranıb. Belə ki, son illər planetimizdə sülhə, təhlükəsizliyə təhdidlər çox artıb. Bir anlığa son illər Yaxın Şərqdə baş verən qanlı qarşıdurma və zorakılıqları gözləriniz önünə gətirin. Belə bir çətin dövrdə Qoşulmama Hərəkatının öz səylərini birləşdirərək həmrəylik göstərməsi sevindirici haldır.

Azərbaycan Respublikası Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiqdir. Bəlli olduğu kimi, 2019-cu ildə hərəkata sədrlik məhz Azərbaycana keçəcək. Əminəm ki, sədrliyi dövründə rəsmi Bakı hərəkatın təməlini təşkil edən məqsəd və məramların inkişafı naminə çalışacaq. Eyni zamanda, müstəqil Azərbaycanın dünya birliyindən gözləntiləri var. Fikrimcə, bu gözləntilərin hüququ əsası var. İyirmi ildən çoxdur ki, Azərbaycan torpaqları Ermənistanın işğalı altındadır. İşğal bu gün də davam edir. Beynəlxalq təşkilatların, BMT-nin, ATƏT-in, Avropa Şurasının qərarlarına baxmayaraq, Azərbaycan torpaqları işğal altında qalmaqdadır. Dünya birliyi təcavüzkara qarşı adekvat mövqe tutmalı, prinsipiallıq göstərməlidir. Biz inanırıq ki, haqq-ədalət öz yerini tapacaq. Əks təqdirdə, Azərbaycan öz torpaqlarını öz igid oğullarının gücü ilə azad edəcək. Qoy buna heç kimin şübhəsi qalmasın!

# Böyük Qafqazın 3D seysmogeodinamik modeli hazırlanacaq



Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Geologiya və Geofizika İnstitutunun (GGİ) seysmologiya və seysmik təhlükə şöbəsinin rəhbəri, dosent Qulam Babayev Fulbrayt Fondunun qrant dəstəyi ilə ABŞ-ın Miçiqan Universitetində elmi ezamiyyətini başa vurub.

İnstitutdan AZƏRTAC-a bildirilib ki, azərbaycanlı alim ezamiyyət müddətində Miçiqan Universitetinin yer və ətraf mühit elmləri şöbəsinin professoru Natan Niyemi ilə birlikdə "Müasir metod və yanaşmalar vasitəsilə Böyük Qafqazın cənub yamacında mövcud olan seysmik təhlükənin qiymətləndirilməsi" mövzusuna dair tədqiqat işləri aparıb.

Elmi axtarışların nəticəsi olaraq hazırda Böyük Qafqazın 3D seysmogeodinamik modelinin hazırlanması nəzərdə tutulur. Bu da öz növbəsində müasir geodezik və seysmik məlumatların istifadəsi nəticəsində tədqiqat ərazisində aktiv deformasiyanın sürəti və lokalizasiyasını, həmçinin geoloji və termoxronoloji məlumatların istifadəsi nəticəsində uzunmüddətli zaman intervalında Böyük Qafqaz dağ silsiləsinin formalaşma sürətini müəyyənləşdirməyə imkan verəcək. Həmçinin seysmik təhlükələrin daha dəqiq qiymətləndirilməsinə və mövcud plitələr tektonikasının paradiqmasına yenidən baxılmasına zəmin yaradacaq. Alınmış nəticələr tezliklə elmi ictimaiyyətin müzakirəsinə çıxarılacaq və çap üçün xarici jurnallara təqdim olunacaq.

# Müdafiə Nazirliyi: Ermənistan ordusunun təxribatının qarşısı qətiyyətlə alınacaq



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bəyanat yayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, son günlər Ermənistan mətbuatı ölkənin rəsmi qurumlarına istinadla növbəti dəfə təxribat xarakterli məlumatlar yaymaqla ictimaiyyətdə yanlış fikir yaradaraq qoşunların qarşıdurma xəttində gərginliyi artırmağa cəhd göstərir.

Aprelin 8-də və 9-da Ermənistan kütləvi informasiya vasitələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası, Qazax və Tovuz istiqamətlərində Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan ərazisinin guya atəşə tutulması barədə məlumatlar yayıb. "Azərbaycan Ordusunun bölmələri Ermənistan ilə dövlət sərhədi boyu atəşkəs rejiminə tam riayət edir. Ermənistan tərəfinin yaydığı məlumatlar həqiqətə uyğun deyil, gələcək təxribatlar üçün zəmin yaradır və bu xəbərlərin davamlı olaraq yayılacağı istisna edilmir. Müdafiə Nazirliyi bildirir ki, Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınacaq, tərəfimizdən dərhal, sərt və sarsıdıcı cavablar veriləcək".

# Brüsseldə yaşayan azərbaycanlılar həmrəylik aksiyası keçiriblər



Avropa Azərbaycanlıları Konqresi, Benilüks Azərbaycanlıları Konqresinin birgə təşkilatçılığı ilə Brüssel şəhərində ölkəmizin Belçika Krallığındakı səfirliyi və Avropa Birliyindəki daimi nümayəndəliyinin binası qarşısında bu ölkədə yaşayan azərbaycanlıların həmrəylik aksiyası keçirilib. Aksiyada iştirak edən soydaşlarımız Avropada yaşayan azərbaycanlıların öz tarixi vətənlərinin milli maraqlarını hər zaman müdafiə etdiklərini vurğulayıblar. Qeyd olunub ki, Azərbaycanın əldə etdiyi uğurlar, artan iqtisadi və hərbi gücü, yüksələn beynəlxalq nüfuzu hər bir azərbaycanlıda qürur hissi doğurur. Bildirilib ki, bu gün dünya azərbaycanlıları azərbaycançılıq ideyası ətrafında sıx birləşərək, xalqımızın və dövlətimizin mənafeləri qorumaq üçün həmrəylik nümayiş etdirir. Aksiya iştirakçıları bəzi anti-Azərbaycan qruplarının ölkənin imicini ləkələməyə istiqamətlənən fəaliyyətini pisləyib. Bir qrup vətənpərvərlik hislərindən məhrum şəxsin heç bir etik çərçivə gözləmədən dövlətin ünvanına söylədiyi təhqirlərin milli-mənəvi dəyərlərimizə laqeydliyin təzahürü kimi qiymətləndirən soydaşlarımız bu insanların azərbaycanlılar adından danışmaq haqqı olmadığını vurğulayıblar. Aksiyada "Hər zaman, hər yerdə səninləyik, Azərbaycan!", "Vətəndən kənarda Vətənin adını uca tutun!", "Azərbaycan Suriya deyil, olmayacaq da!", "Bizim gücümüz birliyimizdədir!" kimi şüarlar səsləndirilib.

## Azərbaycan və Kamboca Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib



Azərbaycan və Kamboca Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib.

AZƏRTAC xəbər verir ki, siyasi məsləhətləşmələrə Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Xələf Xələfov, Kamboca tərəfdən isə Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin baş katibi Ouç Boritin rəhbərlik edib.

Nazir müavini Xələf Xələfov Kamboca nümayəndə heyətinin səfərinin ölkələrimiz arasında siyasi dialoqun möhkəmlənməsi və işgüzar əlaqələrin genişlənməsi üçün faydalı olacağına, əməkdaşlığın müxtəlif sahələr üzrə inkişafı üçün mühüm zəmin yaradacağına əminliyini ifadə edib. O, Azərbaycan ilə Kamboca arasında siyasi, iqtisadi, humanitar, kənd təsərrüfatı, tibb, enerji və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğunu qeyd edərək, əlaqələrin müqavilə-hüquq bazasının inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Görüşdə X.Xələfov qonağa Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən irimiqyaslı nəqliyyat və enerji layihələri haqqında məlumat verib, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat marşrutlarının Cənub və Cənub-Şərqi Asiya ölkələrinin Avropa bazarlarına çıxması üçün əlverişli imkanlar yaratdığını deyib. Həmçinin qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən köklü islahatlar barədə danışıb.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, ölkəmizin ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu deyən nazir müavini münaqişənin regionda sülhə, sabitliyə və hərtərəfli inkişafa başlıca təhdid olaraq qalmaqda davam etdiyini bildirib. X.Xələfov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiyinə görə Kamboca tərəfinə təşəkkürünü bildirib və Kambocanın bu mövqeyinin davamlı şəkildə ifadə olunacağına əminliyini qeyd edib.

O.Borit Kambocanın Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu bildirib. O, fürsətdən istifadə edərək Azərbaycan Hökumətinə Qoşulmama Hərəkatı Nazirlər Konfransının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını ifadə edib. O.Borit ölkəsinin BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müvafiq qətnamələrinin yerinə yetirilməsinin tərəfdarı olduğunu bildirib və münaqişənin sülh yolu ilə həllini dəstəklədiklərini deyib.

Yüksək səviyyəli dövlət rəsmilərinin səfər mübadiləsinin həyata keçirilməsinin ikitərəfli münasibətlərin inkişafında önəmini vurğulayan kambocalı diplomat ölkələrimiz arasında siyasi dialoqun davam etdirilməsinin vacibliyini diqqətə çatdırdı. Həmçinin parlamentlər arasında əməkdaşlığın gələcək inkişafında Kambocanın maraqlı olduğunu bildirib. O.Borit sovet dövründə kambocalı tələbələrin ölkəmizdə təhsil almaları üçün yaradılmış imkanlara görə Azərbaycana təşəkkürünü çatdırıb və iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın davam etdirilməsi niyyətində olduqlarını qeyd edib.

Enerji sahəsində Azərbaycanın zəngin təcrübəyə və yüksəkixtisaslı peşəkarlara malik olduğunu deyən qonaq bu istiqamətdə ölkələrimiz arasında müxtəlif mübadilə proqramlarının həyata keçirilməsinin əhəmiyyətini qeyd edib.

Görüşdə, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün hökumətlərarası birgə komissiyanın yaradılması və siyasi məsləhətləşmələrin davamlı əsasda aparılması məsələləri müzakirə olunub.

## 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi Varşavada qeyd edilib



Azərbaycanın Polşadakı səfirliyinin təşəbbüsü ilə Avropanın aparıcı təhsil ocaqlarından biri olan Varşava Universitetinin şərqşünaslıq fakültəsində 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar anım mərasimi keçirilib.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə 100 il bundan əvvəl baş vermiş və tarixin ən qanlı səhifələrindən biri olan azərbaycanlıların soyqırımı hadisələrinin tarixi kökləri və xalqımıza qarşı ermənilər, onların havadarları tərəfindən əsrlərboyu davamlı olaraq aparılmış etnik təmizləmə siyasəti barədə tələbələrə geniş məlumat verilib.

Sonra universitetdə təhsil alan tələbələr Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlərini bildirərək, Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf yeddi rayonunun təcavüzkar Ermənistan tərəfindən işğal olunmasını qəti şəkildə pisləyiblər. 2016-cı ilin aprel hadisələrinə də toxunan tələbələr təcavüzə məruz qalmış ölkə kimi Azərbaycanın öz ərazi bütövlüyünü müxtəlif vasitələrlə, o cümlədən hərbi yolla bərpa etmək hüququna malik olduğunu qeyd ediblər. Qeyd edək ki, azərbaycanlı tələbələrin təşəbbüsü ilə Varşavada Ermənistan səfirliyi qarşısında 2018-ci il azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı aksiya keçirilib. Aksiya zamanı tələbələr azərbaycanlıların soyqırımını əks etdirən bukletləri və çap materiallarını şəhər sakinlərinə paylayıblar.

## Bayram günləri İrandan ölkəmizə 70 mindən çox turist gəlib



Bu ilin ilk üç ayı ərzində Azərbaycana gələn xarici qonaqların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,5 faiz artıb. AZƏRTAC xəbər verir ki, təkcə Novruz bayramı günlərində İran İslam Respublikasından ölkəmizə 71 min nəfər turist səfər edib. Yanvar və fevral ayı ərzində ölkəmizə gələn xarici vətəndaşların bank xərcləri isə 190 milyonu ötüb. Qeyd edək ki, iki ay ərzində Azərbaycan vətəndaşlarının xarici ölkələrdəki bank xərcləri 179 milyon olub.

## Yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim edilib



Aprelin 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən dövlət qeydiyyatına alınan bir qrup dini icmaya şəhadətnamələr təqdim edilib. DQİDK-dan AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə təşkil edilmiş toplantıda Dövlət Komitəsi sədrinin birinci müavini, Aparat rəhbəri, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.

Ölkəmizin nümunəvi dövlət-din modelindən danışan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, müstəqilliyimizi bərpa etdikdən sonra bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də sürətli inkişafa nail olunub, dövlətçiliyimizə, milli mənəvi dəyərlərimizə, dinimizə uyğun qaydalar müəyyənləşdirilib. O deyib ki, Azərbaycan tolerantlığı, multikultural ənənələrə sadiqliyi ilə bütün dünyada örnək göstərilən ölkələrdəndir. Ölkəmizdə məscidlər, kilsələr, sinaqoqlar tikilib və bərpa olunub, mütəmadi olaraq müsəlman və qeyri-müsəlman dini icmalarına maliyyə yardımı göstərilir, dini bayramlar yüksək səviyyədə qeyd olunur.

Cəmiyyətimizi xurafatdan, mövhumatdan uzaq, saf dini biliklərlə maarifləndirməyin önəminə toxunan Səyyad Salahlı icma sədrlərini tarixi irsimizin mühüm hissəsi olan dinimizin, milli mənəvi dəyərlərimizin ictimaiyyətə düzgün çatdırılması işində fəal olmağa çağırıb.

Sonra 3-ü qeyri-islam dini icması olmaqla 15 dini quruma qeydiyyat şəhadətnamələri təqdim edilib.

Masallı şəhəri "Cümə" məscidi dini icmasının sədri Mirqabil Hüseynov yeni qeydiyyatdan keçmiş dini icmaların gələcək fəaliyyətlərində azərbaycançılıq məfkurəsini əsas tutacaqlarını və xalqımızın milli mənəvi dəyərlərinə yad olan dini ideologiyaların ölkəmizə ayaq açmasının qarşısının alınmasında fəal iştirak edəcəklərini vurğulayıb.

Qeyd edək ki, dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan sonra 808 dini qurum dövlət qeydiyyatından keçib. Konfessional baxımdan onların 777-si İslam, 31-i isə qeyri-İslam (Xristian - 20; Yəhudi - 8; Krişna - 1; Bəhai - 2) təmayüllüdür.

## Fransanın tanınmış caz ifaçısı "YARAT"da çıxış edəcək



Aprelin 12-də "YARAT" Müasir İncəsənət Mərkəzində Fransanın ölkəmizdəki səfirliyi və Azərbaycanda Fransız İnstitutunun birgə təşkilatçılığı ilə "Mugham Souls" adlı konsert proqramı təqdim olunacaq.

AZƏRTAC xəbər verir ki, konsert Fransanın tanınmış caz ifaçısı Pyer de Treqoman və xanəndə Qoçaq Əsgərovun iştirakı ilə keçiriləcək. Frankofoniya Həftələri çərçivəsində təşkil olunacaq konsertdə hər kəs iştirak edə bilər.

## Çində Asiya Media Sammiti keçirilib

Aprelin 9-da Çinin Sanya şəhərində Asiya Media Sammiti keçirilib. AZƏRTAC xəbər verir ki, sammit Boao Forumunun İllik Asiya Konfransı çərçivəsində baş tutub. "Asiyada KİV-lərin əməkdaşlığının yeni dövrü - qarşılıqlı əlaqə və innovativ inkişaf" adlanan sammitə qitənin müxtəlif ölkələrini təmsil edən 140-dan çox media nümayəndəsi qatılıb. Tədbirdə ölkəmizi Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC təmsil




edib. Sammitin məqsədi Asiya KİV-lərini qitədə ölkələr və xalqlar arasındakı əlaqələrin daha da möhkəmləndirilməsi, inkişafın və mədəniyyətlərin təbliğ edilməsi istiqamətində səylərini artırmağa çağırmaqdır. Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Büro üzvü Huanq Kunminq qeyd edib ki, indiki dövrdə medianın diqqət ayırmalı olduğu əsas məsələlər sülh və inkişafdır. "Bu iki amil olmadan qitədə əmin-amanlıq əldə etmək mümkün deyil. Ona görə də bunlar medianın prioritet mövzuları olmalıdır. Asiya mediası innovasiyalardan həm yararlanmalı, həm də onların müxtəlif sahələrdə tətbiqini təbliğ etməlidir", - deyə o vurğulayıb. Sammitdə Çin və xarici medianın "Bir kəmər - bir yol" Xəbər Alyansının dəstəklənməsi barədə birgə bəyannaməsi qəbul edilib. Həmçinin 22 ölkədən 19 media qurumu arasında əməkdaşlıq müqavilələri imzalanıb.

Sammit işini bölmə iclasları ilə davam etdirib. Tədbir Boao Forumu, Çin Media Qrupu və Çin İctimai Diplomatiya Assosiasiyası tərəfindən təşkil edilib.




# TÜRKİYƏ YENİ GÜC MƏRKƏZİ KİMİ:
## Şərq-Qərb geosiyasi tarazlığının bərpası kontekstində

***Böyük dövlətlərin qlobal geosiyasi nüfuz uğrunda apardıqları mübarizə kəskinləşdikcə, meydana yeni məqamlar çıxır. Onların sırasında Yaxın Şərqdə bütövlükdə vəziyyətin inkişaf meyilləri məsələsi də yer alır. Qərb ekspertləri problemin bu aspektinə son zamanlar daha çox diqqət yetirməyə başlayıblar. ABŞ mətbuatında dərc edilən bir sıra yazıların analizi göstərir ki, Türkiyənin “Fərat qalxanı” və “Zeytun budağı” əməliyyatları Vaşinqton və Brüsselin Ankaraya münasibətini yeniləşdirməkdədir. Belə ki, Qərbin böyük dövlətləri, o cümlədən Avropa İttifaqı Türkiyənin qlobal geosiyasətdəki rolunun yüksəlməsi ilə barışmalı olublar. Bu səbəbdən onlar Ankara ilə əməkdaşlıqda indi daha çox maraqlıdırlar. Problemə bu tezislərin prizmasından baxdıqda, dünyanın geosiyasi mənzərəsində hansı yeniliklər özünü göstərə bilər? Bu suala cavab axtarmağı lazımlı hesab edirik.***

### Ankaranın qətiyyəti: **Yaxın Şərqin geosiyasi mənzərəsi dəyişir**

Türkiyənin Yaxın Şərq siyasətində daha qətiyyətli və aktiv mövqe nümayiş etdirməsi özünün geosiyasi bəhrələrini verməyə başlayıb. Öncə, Ankaranın atdığı addımlara səbirsiz yanaşan Qərbin böyük dövlətləri artıq fərqli “notlarda danışırlar”. Ekspertlər onun iki əlamətini vurğulayırlar. Onlardan birincisi Türkiyə-Aİ, digəri isə ABŞ-Türkiyə münasibətlərində özünü göstərir.

Bolqarıstanın Varna şəhərində keçirilən Avropa İttifaqı-Türkiyə sammiti geniş müzakirələr məkanı oldu. Tərəflər illərdir ki, yığılıb qalmış və prinsipial əhəmiyyət daşıyan məsələləri masa üzərinə qoyublar. Türkiyə tərəfi apardığı “Fərat qalxanı” və “Zeytun budağı” əməliyyatlarının əsl mahiyyətini avropalı siyasətçilərə konkret faktlarla bir daha izah edib. Afrin əməliyyatında meydana çıxan yeraltı mühəndis qurğuları, silahlar, orada döyüşən avropalılar haqqında Aİ rəsmilərinə informasiyalar verilib. Bu cür izahlardan sonra Aİ nümayəndələri Ankaranın düzgün addım atdığını etiraf ediblər. Terrordan təmizlənmiş yerlərə humanitar yardımın çatdırılması ilə bağlı məsələ qaldırılıb. Türkiyə bunu yüksək qiymətləndirib və qəbul edib. BMT-nin də həmin məsələ ilə bağlı təklifinə razılıq verilib.

Varnadakı görüşlərdə Aİ miqrant məsələsində Ankaranın həyata keçirdiyi siyasətdən razılığını da ifadə edib. Türkiyəyə “3+3” milyard avro formulu ilə ayrılmalı olan maliyyə dəstəyi ilə bağlı konkret mövqe ortaya qoyulub. Prezident Rəcəb Tayyib Ərdoğan bu vəsaitin birbaşa verilməsi məsələsini qaldırıb.

Aİ-Türkiyə zirvəsinin mərkəzi müzakirə punktu isə üzvlük və gömrük sazişi ilə bağlı olub. Türkiyə tərəfi təşkilata daxil olmaq siyasətini davam etdirməkdə qərarlı olduğunu bir daha təsdiqləyib. O cümlədən gömrük sazişi və viza sisteminin sadələşdirilməsi ilə əlaqədar konkret addımların atılması zəruriliyi vurğulanıb. Tərəflər Türkiyənin üzvlüyü ilə bağlı müzakirələri davam etdirmək qərarına gəliblər.

Görüşdən sonra jurnalistlərə Avropa İttifaqı Şurasının sədri Donald Tusk və Avropa Komissiyasının sədri Jan-Klod Yunker bəyan ediblər ki, Avropa İttifaqı Türkiyə ilə əlaqələri inkişaf etdirməkdə maraqlıdır. Ankaranın Suriya və İraqla bağlı qayğılarını da anlayırlar. Müzakirələrin davam etdirilməsi lazımdır. Doğrudur, Aİ-də hər bir üzv belə mövqedə deyil. Lakin əksəriyyət Ankara ilə münasibətlərin inkişafını doğru sayır.

Bütün bunlar onu göstərir ki, Brüssel Ankara ilə təzyiq dilində danışmağın mənasız olduğunu anlayıb. Avropa Türkiyə ilə əməkdaşlığın daha vacib olduğunu qəbul edib. Onlar dərk ediblər ki, nə Suriya, nə də İraqda türk ordusunun qarşısını ala bilməyəcəklər. Türkləri durdurmaq yox, onları anlamaq daha məqbul yoldur. Bu aspektdə də Ankara ilə əməkdaşlıq qurmaq gərəkdir.

Bu sırada ABŞ-ın Türkiyə siyasəti maraqlı çalarlar almaqdadır. Amerika KİV-i bununla bağlı diqqət çəkən yazılar dərc edir. Onlarda Vaşinqtonun Ankara ilə indi mövcud olandan bir qədər fərqli münasibətlər qurmalı olduğu ayrıca vurğulanır. Analitiklər qeyd edirlər ki, Türkiyənin Suriyada apardığı hərbi əməliyyatları Vaşinqton dayandıra bilmədi. Türklər dedikləri sözə əməl etdilər. Afrin əməliyyatı göstərdi ki, türk ordusu ölkə xaricində peşəkar səviyyədə fəaliyyət göstərə bilər. Bu səbəbdən Türkiyənin iradəsinə qarşı çıxmaq faydasızdır. Məsələnin digər tərəfi mənəvi-ideoloji məqamla bağlıdır. Belə ki, kürdlər növbəti dəfə aldadıldılar. Onları Amerika və başqa “müttəfiqləri” Afrində yalnız buraxdılar. Nəticədə, döyüşkən kimi qələmə verilən kürd qruplarını türk ordusu qısa müddətdə darmadağın etdi. İndi Telafir, Münbic və Rakka istiqamətlərində Türkiyə və Azad Suriya Ordusuna ciddi müqavimət göstəriləcəyi ehtimalı azdır.

### Yeni güc mərkəzi: **Türkiyə qlobal oyunçu kimi**

Yerli dinc əhali - ərəblər, kürdlər, türkmənlər və b. türk ordusunun onları da azad etməsini tələb edirlər. Bu, çox ciddi uğurdur. Və eyni zamanda, ABŞ-ın dəstəklədiyi qüvvələrin məğlubiyyətidir. Aydın olur ki, insanlar onları sevmir və qəbul etmirlər. Suriyalılar nə Əsəd rejiminə, nə də ABŞ-ın başçılıq etdiyi müxalif radikal qruplara etibar edirlər. Onlar Türkiyəni xilaskar kimi görürlər.

Deməli, Suriyadakı radikal kürd qrupları anladılar ki, amerikalılar onlardan “günah keçisi” kimi istifadə edirlər. Bu səbəbdən onlar özlərinə yeni müttəfiq axtarışına çıxmağa çalışırlar. Lakin eyni məntiqlə amerikalılar da hərəkət edirlər. Bir sıra mütəxəssislər Vaşinqtonun Bəşər Əsədlə ittifaqa gedə biləcəyini yazır (bax: məs., Mehmet Seyfettin Erol. Ankara-Washington Hattında Üç İtiraf, Tek Gerçek! / ANKASAM, 22 mart 2018).

“Washington Post”da Paul Sonne və Karen DeYoung yazırlar ki, Amerika rəsmiləri içərisində, birincisi, Suriya Demokratik Gücləri (SDG) ilə Əsədin anlaşmaya nail olmalarını, ikincisi, ABŞ-ın regionda əsgəri gücünü artırmalı olmadığını, üçüncüsü, SDG-Əsəd ittifaqı müxalifət və İŞİD-lə yanaşı, Türk güclərinə də qarşı savaşmalıdırlar, düşüncəsində olanlar vardır (bax: əvvəlki mənbəyə). Burada başlıca məqsəd türkləri Suriyadan çıxarmaqdan ibarətdir.

Bunlar nəyin əlamətidir? Ekspertlər hesab edirlər ki, hər şeydən öncə ABŞ daxilində fikir ayrılıqları dərinləşir. Rəsmi dairələrdə Yaxın Şərq, o cümlədən Türkiyə istiqamətində vahid mövqe yoxdur. Bir qisim Türkiyə ilə səmimi əməkdaşlıq edib, strateji müttəfiqliyi gücləndirməyi, digər qisim isə Ankaranı cəzalandırmağı uyğun sayırlar.

Bunlardan hansının üstün gələcəyini indidən demək çətindir. Lakin artıq aydındır ki, Türkiyə öz məqsədinə doğru inamla getdikcə, Qərb siyasi dairələri təlaş keçirirlər. Artıq onların manevr imkanları xeyli məhdudlaşıb: ya Türkiyəyə qarşı səmimi olub, əməkdaşlığa davam, ya da qarşıdurmanı gücləndirməklə Türkiyəni və bütövlükdə Yaxın Şərqi itirmək.

ABŞ ekspertlərinin qənaətinə görə, sonuncu məqam daha təhlükəli geosiyasi tendensiyanın əlamətidir. Almaniya kəşfiyyatının keçmiş şefi Auqust Hanninq deyir ki, əvvəla, Türkiyə Qərbdən uzaqlaşır, ikincisi, Osmanlı ənənəsinə daha güclü bağlanır, üçüncüsü, İslam dünyasında daha güclü bir rola sahib olmağa çalışır (bax: əvvəlki mənbəyə). Fikrinə davam edərək o, ifadə edir: “Türkiyənin Suriyaya hərbi müdaxiləsinə ittihamedici yanaşmaqla bərabər, Türkiyənin mövqeyini dəyişə biləcək mövqedə olmaq qayğımız da yoxdur. NATO üzvü olaraq bizlər Türkiyə ilə əlaqələrimizi qorumaq üçün çalışmamız lazım gəldiyini düşünürəm” (bax: əvvəlki mənbəyə).

A.Hanninq öz mövqeyini bununla əsaslandırır ki, Qərb öz daxilində mövcud olan fikir ayrılığı ucbatından Türkiyəyə əvvəlki kimi təsir edə bilmir. Deməli, qlobal geosiyasətdə Qərbin böyük dövlətlərinin doldura bilmədiyi bir boşluq meydana gəlib. O, Qərblə Şərq arasında geosiyasi tarazlıq formalaşdıra biləcək yeni güc mərkəzinin formalaşmasıdır. Özü də bu, sürətlə dəyişən geosiyasi şərtlər daxilində baş verməlidir. Türkiyə məhz həmin statusa sahib olmaq istiqamətində fəaliyyət göstərir. Hələlik Ankara uğurlu addımlar atır.

Türkiyənin tarazlıq yaradan yeni güc mərkəzinə çevrilməsi faktiki olaraq bütün Avrasiyada yeni geosiyasi mənzərəni formalaşdıra bilər. Avropadan tutmuş Uzaq Şərqə qədər geniş bir məkanda sabitlik təmin edilər. Bu, yalnız Qərbə deyil, Rusiya və Çinə də eyni dərəcədə sərfəlidir. Elə bu faktor da Ankaranın şansının yüksək olduğunu göstərir.

***Newtimes.az***

## "İpək Yolu" jurnalının yeni nömrəsi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunub




Azərbaycan Universitetinin elmi jurnalı "İpək Yolu"nun 2018-ci il üçün birinci nömrəsi çapdan çıxıb. Universitetdən AZƏRTAC-a bildiriblər ki, jurnalın bu nömrəsi Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illiyinə həsr olunub. Jurnalın "AXC-100", "İqtisad elmləri" və "Filologiya elmləri" bölmələrində Azərbaycan və rus dillərində məqalələr yerləşdirilib. Nəşrin "AXC-100" bölməsində professor Anar İsgəndərovun "Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və tariximizdə yeri", professor Qabil Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin Qafqazda yaranmış digər respublikalarla qarşılıqlı münasibətləri (1918-1920-ci illər), Əməkdar Jurnalist Namiq Əhmədovun "Cümhuriyyət dövrü milli mətbuatımız və dövlətçilik", tarix üzrə fəlsəfə doktoru Salman İbişovun "Azərbaycan xalqının milli mənəvi dəyərlərinin qorunması və mücadilə tarixinin aktual problemlərinə dair" məqalələri yer alıb.

Oxucular jurnalın "İqtisad elmləri" və "Filologiya elmləri" bölmələrində isə bu sahələri əhatə edən tədqiqatların nəticələri ilə bağlı məqalələrlə tanış ola bilərlər. "İpək Yolu" jurnalının yeni nömrəsini online formada Azərbaycan Universitetinin saytında oxumaq mümkündür. Müəlliflər təlimata uyğun hazırlanmış məqalələri ipek.yolu-@au.edu.az elektron ünvanına göndərə bilərlər.

## Bakıda ilk dəfə Latın Amerikası Kinofestivalı keçiriləcək




Meksikanın Azərbaycandakı səfirliyinin təşkilati dəstəyi ilə aprelin 16-dan 19-dək Bakıda ilk Latın Amerikası Kinofestivalı keçiriləcək. Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, festival çərçivəsində filmlər "Park Cinema" ("Flame Towers") kinoteatrında, "Landmark" kompleksinin kino zallarında, həmçinin Azərbaycan Dillər Universitetinin binasında nümayiş etdiriləcək. Kinofestivalın keçirilməsində əsas məqsəd Azərbaycan tamaşaçılarını Latın Amerikası ölkələrinin mədəniyyəti və ənənələri, xüsusilə kinematoqrafiya tarixi və istiqamətləri ilə yaxından tanış etməkdir. Festival çərçivəsində Argentina, Braziliya, Kolumbiya, Kosta Rika, Kuba, Peru və Meksika istehsalı olan yeddi ekran əsəri təqdim ediləcək. Filmlər ingilis dilində subtitrlər ilə ispan və portuqal dillərində göstəriləcək. Bütün seanslara giriş sərbəstdir. Meksika səfirliyinin məlumatında deyilir: "Latın Amerikası ölkələrinin zəngin mədəni irsi var. Yeni ictimai cərəyanların qədim adət-ənənələrlə uzunmüddətli sintezi prosesi öz əksini regionun istər mədəni və qastronomik rəngarəngliyində, istərsə də tarixi və linqvistik zənginliyində tapıb".

## Türk Şurasının nümayəndə heyəti Mərkəzi Seçki Komissiyasında olub

Aprelin 9-da Türk Şurası baş katibinin müavini Ömər Kocamanın rəhbərlik etdiyi nümayəndə heyəti Mərkəzi Seçki Komissiyasında (MSK) olub. AZƏRTAC xəbər verir ki, MSK-nın sədri Məzahir Pənahov qonaqlara prezident seçkilərinə hazırlıq işləri barədə məlumat verib. Bildirib ki, aprelin 11-də 5 milyon 315 minə yaxın seçici 5 min 641 seçki məntəqəsində səs verəcək. Seçkiyə hazırlıq işləri yüksək səviyyədə görülüb, zəruri şərait yaradılıb. Seçkiləri 51 beynəlxalq kütləvi informasiya vasitəsinin 118 təmsilçisi işıqlandıracaq. 890 beynəlxalq müşahidəçi, 59 minə yaxın yerli müşahidəçi səsvermənin gedişini izləyəcək. Səsvermə günü iki qrup halında üç şəhərdə müşahidələr aparacaqlarını deyən Ömər Kocaman seçkilərə hazırlıqları yüksək qiymətləndirib. O qeyd edib ki, rəhbərlik etdiyi nümayəndə heyətinə 16 müşahidəçi daxildir.

# Ermənilərin aprel etirafları...

## *Düşkünlük, gücsüzlük və məğlubiyyət!*

***"İki il öncənin bu günü bizim ictimaiyyəti heç də xoş olmayan müharibə xəbəri oyatdı". Bu barədə Ermənistanın 1in.am saytının analitik bölümündə aprel müharibəsinə və işğalçıların məğlubiyyətinə həsr olunmuş yazıda qeyd olunub. Məqalədə bildirilir ki, hərbi əməliyyatlar bütün cəbhə xətti boyu başlayıb və xüsusilə, "Artsax" (Qarabağ-red.) - Azərbaycan "sərhədinin" cənub ("Hadrut"-Xocavənd) və şimal-şərq ("Mardakert"-Ağdərə) istiqamətlərində qızğın döyüşlər gedib.***



Məqalənin həm də bir düşmən etirafı olduğunu nəzərə alaraq, onun davamını diqqətinizə çatdırırıq. Belə ki, sözügedən yazıda bildirilir ki, "dördgünlük müharibə" erməniləri yeni reallığa nəzər salmağa məcbur etdi. SİTAT: "Hansı ki, biz köhnə miflərlə vidalaşmalı olduq - hətta ola bilər ki, yeni situasiyanın adekvat baxışına sahib olmadan".

### "Dördgünlük müharibə" - erməni mifinin dağıdılması reallığı

Düzdür, sözügedən məqalədə erməni müəllif erməni ordusunun bacarıqsızlığını və zəifliyini etiraf etsə də, necə deyərlər, digər tərəfdən, bunu öz təbirincə, yəni ermənilərə xas olan üsulla pərdələməyə çalışıb. Məsələn, "dördgünlük müharibə"nin ermənilərin hərbi-siyasi elitasının bacarıqsızlığının və naşılığının, ordunun hərbi üstünlüyü mifinin indikatoru olduğunu yazan müəllif digər tərəfdən, guya belə bir vəziyyətdə "millətin" qeyri-standart hallarda rasional həll etmə qabiliyyətinin olduğunu, hətta erməni əsgər və zabitlərinin "şücaət" göstərdiyini iddia edir. Əlbəttə, belə olan halda gerçək bir sual yaranır: belədirsə, düşmən əsgər və zabitləri bu qədər "qəhrəmanlıqlar" göstəriblərsə, ermənilər nəyə görə məğlub oldular? Söz yox ki, erməni tərəfi bütün hallarda uduzublar və onların nə hərbi, nə də digər cəhətlərdən heç bir uğurları olmayıb.

### Erməni müəllif: "Bizim siyasi sistem, təəssüf ki, Qarabağ probleminin həlli üçün heç bir hazırlığa malik deyil, hətta müzakirələr, debatlar aparmaq səviyyəsində olsa belə"

Lakin burada digər tərəf - ermənilərin müharibədən bezdikləri də açıq-aydın görünür. Misal üçün, yazıda qeyd olunur: "Dördgünlük müharibə" yeni baxışla müharibə və sülh dilemması üzərində düşünməyə vadar etdi və göstərdi ki, bizim siyasi sistem, təəssüf ki, Qarabağ probleminin həlli üçün heç bir hazırlığa malik deyil, hətta müzakirələr, debatlar aparmaq səviyyəsində olsa belə".

Erməni müəllif bunu belə etiraf edir ki, 1994-cü ildən başlayaraq, atəşkəs rejimi tətbiq olunduqdan sonra ermənilər dövlətçilik ideyaları ətrafında baş qarışdırmaqla məşğul olublar - növbəti müharibədən yan keçərək, əslində, onu daha da yaxınlaşdırmaqla. Lakin bunun yerinə hakimiyyət korrupsiyalar, seçki falsifikasiyaları vasitələri ilə o qədər məşğul oldular ki, birinci müharibənin effektlərindən yararlanmağı bacarmadılar. "Halbuki elə sivilizasiyalı, siyasi bir mühiti məhv elədi ki, onların üzərində vətəndaş maraqlarını təmin edəcək müasir dövlət qurmaq olardı..."

Bu kimi məsələlərə toxunan erməni müəllif digər bir məqama toxunur: "Təsadüfi deyil ki, müharibədən bir neçə ay sonra PPX alayının ələ keçirilməsi avantürası baş verdi. Düz bir il sonra isə, ictimaiyyətin siyasi kapitulyasiyası reallaşdı. Bu, bizim siyasi sistemin dolayısı ilə "dördgünlük müharibə"dən sonra - daha dəqiq desək, problemlərin həlli üçün səslənən yeni çağırışlar qarşısında "ağ bayraq" qaldırması idi. 2016-cı ilin aprelində bizim ictimaiyyət rasionallıq, dolğun baxış kimi keyfiyyətlər əldə etsə də, sonradan bütün bunlar bataqlıqda məhv oldu..."

### "Dördgünlük müharibə" müttəfiqlərimiz, dünya, beynəlxalq əlaqələr və humanizm haqqındakı təsəvvürlərimizi də dəyişmiş oldu"

Bənzər amilləri araşdırarkən, biz erməni müəllifin digər eyhamlarına da diqqət yetirə bilərik. Belə ki, aprel müharibəsindən sonra biz ermənilərin uzun müddət "müttəfiqimiz" dedikləri Rusiya ilə münasibətlərini korladıqlarının şahidi olduq. Adıçəkilən erməni saytının analitiki yazır: "Dördgünlük müharibə" müttəfiqlərimiz, dünya, beynəlxalq əlaqələr və humanizm haqqındakı təsəvvürlərimizi də dəyişmiş oldu".

Erməni analitik bu müharibənin Moskva tərəfindən hazırlandığını və Bakının əli ilə baş verdiyini iddia edir. Görünür, bu səbəbdən dar düşüncəlik və qeyri-reallıq baxımından, 1 in.am saytının təhlilçisi guya Bakının Ermənistana və "Artsaxa" müharibə elan etdiyini yazır. Halbuki bu gün dünyanın bir çox siyasi dairələrində aprel müharibəsinin məhz erməni təxribatı sayəsində baş verdiyi barədə fikirlər təsdiqini tapmışdır.

Beləliklə, görünən budur ki, aprel müharibəsi düşmənə kifayət qədər ciddi dərs, hətta kötək təsiri bağışlayıb. Ona görə də, hər ilin bu ərəfələrində ermənilər, necə deyərlər, ağlaşma quraraq, məğlubiyyət etiraflarını etmək məcburiyyətində qalırlar.

**Rövşən NURƏDDİNOĞLU**

# İlin sonunadək valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artacaq

İlin sonunadək valyuta ehtiyatlarımız əhəmiyyətli dərəcədə artacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Bankın sədri Elman Rüstəmov deyib. Mərkəzi Bankın valyuta ehtiyatlarının qənaətlə istifadə etdiyini deyən sədr qeyd edib ki, büdcəyə transfertlər, eyni zamanda, idxal əhəmiyyətli dərəcədə azalıb. Bu da bizə nəzərdə tutulan layihələri yerinə yetirməyə imkan verir. Bu ilin üç ayında valyuta ehtiyatları 2,2 milyard dollar artaraq 44 milyard dolları ötüb. Mövcud bazar konyukturasından istifadə edərək neftin qiymətində əhəmiyyətli dəyişiklik olmasa, valyuta ehtiyatlarımız artacaq.

# Yaponiya ilə Azərbaycan arasında gömrük əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub



***Yaponiya ilə Azərbaycan arasında gömrük əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aprelin 9-da Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Yaponiyanın Maliyyə Nazirliyi Gömrük və Tarif Bürosunun baş direktorunun müavini Sumiya Şibasakinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Azərbaycan və Yaponiya gömrük xidmətləri arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin səviyyəsindən, xüsusilə Ümumdünya Gömrük Təşkilatı çərçivəsində əlaqələrdən məmnunluğunu ifadə edib, bu əlaqələrin bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Komitə sədri Azərbaycan Gömrük Xidmətinin Ümumdünya Gömrük Təşkilatı ilə qarşılıqlı səmərəli əlaqələrindən, bu qurumun baş katibi Kunio Mikuriyanın Azərbaycana səfərlərindən məmnunluqla söhbət açıb və gələcəkdə əlaqələrin daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Aydın Əliyev Yaponiya gömrüyünün kadrların potensialının artırılması istiqamətində Azərbaycana göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edib, artıq dörd nəfər gömrük əməkdaşının Yaponiyada təhsil aldığını və həmin şəxslərin gömrük orqanlarında mühüm vəzifələr tutduğunu diqqətə çatdırıb.

Azərbaycanda əlverişli biznes mühitindən, sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlardan bəhs edən Aydın Əliyev iş adamlarının çevik və səmərəli fəaliyyəti üçün mühüm imkanlar yaradıldığını vurğulayıb. Ölkədə istehsal məqsədilə həyata keçirilən layihələrin 7 il müddətinə vergilərdən azad olunduğunu diqqətə çatdıran Aydın Əliyev yaradılan münbit investisiya mühiti ilə əlaqədar yaponiyalı iş adamlarının da Azərbaycana investisiya yatıracağına, iri̇həcmli istehsal sahələrinin yaradılmasına töhfə verəcəklərinə əmin olduğunu bildirib.

Yaponiya Maliyyə Nazirliyinin Gömrük və Tarif Bürosunun baş direktorunun müavini Sumiya Şibasaki iki ölkə arasında əlaqələrin inkişaf etdiyini və gələcəkdə daha da möhkəmlənəcəyini, öz növbəsində, hər iki ölkənin gömrük orqanlarının da əlaqələrin səmərəli şəkildə inkişafına töhfələrini verəcəyini bildirib.

Görüşdə bu il mayın 2-4-də Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə Bakıda keçiriləcək Gömrük və Logistika üzrə Səlahiyyətli İqtisadi Operatorların Beynəlxalq Assosiasiyasının illik assambleya və konfransı, iyul ayında keçiriləcək "Gömrük idarəçiliyində aktual məsələlər və çağırışlar" mövzusunda III Beynəlxalq Tələbə Konfransı barədə də fikir mübadiləsi aparılıb.

Azərbaycan Gömrük Xidmətinin son illər gömrüklə əlaqəli bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etməsinə və bu tədbirlərin əhəmiyyətinə toxunan Sumiya Şibasaki, o cümlədən beynəlxalq tələbə konfransının gənc gömrükçülər arasında əlaqələrin qurulması və inkişafı baxımından faydalı olduğunu və bu tədbiri yüksək qiymətləndirdiklərini bildirib.

Eyni zamanda, görüşdə bu il Ümumdünya Gömrük Təşkilatında keçiriləcək seçkilərlə bağlı qarşılıqlı fikir mübadiləsi aparılıb. Görüşdə Yaponiyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katori də iştirak edib.

## ABŞ və İtaliya jurnalistləri Mətbuat Şurasında olublar

Dünən ölkəmizdə səfərdə olan xarici jurnalistlər Azərbaycan Mətbuat Şurasında olublar. MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov ABŞ və İtaliyanın nüfuzlu media orqanlarında siyasi şərhçi kimi fəaliyyət göstərən Nurit Qrengerdən, Yason Katsdan, Lello Stelettidən, Raqul Kontrerasdan və Domenika Letisiyadan ibarət nümandə heyətinin üzvlərinə rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri barədə geniş məlumat verib.




Mətbuat Şurasının KİV-lərin 11 aprel növbədənkənar Prezident seçkilərində peşə fəaliyyətini yerinə yetirmələrinin monitorinqini apardığını vurğulayan Ə.Amaşov xarici jurnalistləri prosesin metodları ilə tanış edib. Qeyd edək ki, ABŞ və İtaliyadan olan jurnalistlərin ölkəmizə səfərlərindən məqsəd11 aprel Prezident seçkilərini işıqlandırmaqdan ibarətdir. Qarşılıqlı müzakirələr şəraitində keçən görüşdə medianın mövcud istiqamətdəki fəaliyyətindəki müxtəlif məqamlardan söz açılıb.

## Muxtar respublikada 36 min 42 arı ailəsi qeydiyyata alınıb

2018-ci ilin birinci rübündə muxtar respublika üzrə 1676 vətəndaşın 36 min 42 arı ailəsi qeydiyyata alınıb və baytarlıq-sanitariya pasportu (şəhadətnamə) verilib. Həmçinin ötən ay muxtar respublikada 953 baş inək və düyədə süni mayalanma aparılıb, keçən ildən mayalanmış inəklərdən 1044 baş cins buzov alınıb. Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətindən AZƏRTAC-a bildirilib ki, xidmət tərəfindən mart ayında da ardıcıl tədbirlər həyata keçirilib. Belə ki, ötən ay mərkəzi və rayon baytarlıq laboratoriyalarında brusellyoz xəstəliyinə görə 9736 qan nümunəsi, 218 patoloji nümunə, 5 adda 16 min 771 parazitar nümunə müayinələrdən keçirilib. Profilaktika məqsədilə 6 min 417 baş iribuynuzlu heyvanda qarayara, 13 min 202 baş iribuynuzluda emkar, 60 min 613 baş iribuynuzluda nodulyar dermatit, 1698 baş iribuynuzluda dabaq, 13 min 362 baş xırdabuynuzluda isə bradzot xəstəliyinə qarşı peyvəndləmə tədbirləri aparılıb. Qeyd olunan dövrdə 319 obyektdə dezinfeksiya və dezinseksiya işləri görülüb, baytarlıq nəzarəti altında olan obyektlərdə 23 dəfə reyd aparılıb, sanitar-ekspertiza laboratoriyalarında 1259 nümunə orqanoleptik, bakterioskopik, toksikoloji müayinələrdən keçirilib. Həmçinin yerlərdə sahibkarlarla 2 dəfə görüş təşkil edilib, onlara mal-qaraya qulluq, yemləmə, xəstəliklərdən qorunma və digər məsələlər barədə maarifləndirici tövsiyələr verilib.



## "Armeniareport": Ermənistanın siyasi elitası yalan təbliğat aparır

Rusiya rəsmi Yerevanın yeganə müttəfiqi kimi qələmə verilsə də, bu, əslində belə deyil. Ermənistanın "strateji müttəfiqi" hesab olunan Moskva Azərbaycanla da hərbi əməkdaşlığı davam etdirir.



AZƏRTAC xəbər verir ki, bu fikirlər Ermənistanın "Armeniareport" saytında yer alıb. Ermənistanın sabiq müdafiə naziri Vaqharşaq Harutyunyanın Rusiya ilə bağlı açıqlamasını şərh edən sayt yazır ki, keçmiş nazir kimi, erməni siyasi elitasının böyük əksəriyyəti Rusiya ilə bağlı yalan təbliğat apararaq erməni ictimaiyyətini aldatmağa çalışır.

Müəllif qeyd edir ki, Rusiya bu gün Azərbaycan və Türkiyə ilə diplomatik, hərbi sahələrdə əməkdaşlığı inkişaf etdirir. Bununla yanaşı, Türkiyə, Gürcüstan və Pakistan Azərbaycanın strateji müttəfiqləridir. Türkiyə Dağlıq Qarabağ münaqişəsi səbəbindən 25 ildir ki, Ermənistanı iqtisadi blokadada saxlayır. Dörd günlük aprel müharibəsini xatırladan erməni jurnalisti yazır ki, hərbi əməliyyatlar Rusiya istehsalı olan silahlarla həyata keçirildi və Ermənistan məğlubiyyətə uğradı.

Saytda Azərbaycanın regiondakı digər bir müttəfiqindən də bəhs edilir. Qeyd olunur ki, Gürcüstan Azərbaycanla hərbi sazişlər imzalayıb, eləcə də rəsmi Tbilisi Bakının Dağlıq Qarabağ siyasətini dəstəkləyir. Müəllif Azərbaycan-Pakistan münasibətlərinə də toxunaraq vurğulayır ki, Pakistan müttəfiqlik siyasətinə sadiq qalaraq, Ermənistanla heç bir diplomatik əlaqə qurmayıb.

Vaqharşaq Harutyunyanı boşboğaz və yalançı adlandıran müəllif Azərbaycan ordusunun öz arsenalını İsrail və Rusiya hərbi texnikası ilə doldurduğunu söyləyir. Bütün bu faktların fonunda qeyd olunur ki, siyasi mənzərə Ermənistanın regionda təkləndiyini göstərir.

## Belarus televiziyası Azərbaycan mətbəxi haqqında veriliş hazırlayıb

Belarus Azərbaycan İcmaları Konqresinin təşəbbüsü ilə Belarus Respublikasının Milli Dövlət Teleradio Kompaniyasının (Belteleradiokompaniya) yüksəkreytinqli verilişlərindən biri olan "Kulinariya diplomatiyası"nın növbəti buraxılışı Azərbaycan mətbəxinə həsr olunub. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, proqramda Belarus Azərbaycan İcmaları Konqresinin idarə heyətinin üzvü Gülnarə İmanova və təşkilatın fəal üzvlərindən biri Olesya Kosokina Azərbaycanın zəngin milli mətbəxi haqqında Belarus tamaşaçılarına məlumat veriblər. Diqqətə çatdırılıb ki, 2000-ə yaxın xörək növü olan Azərbaycan milli mətbəxi dünyanın ən qədim, zəngin və dadlı mətbəxlərindən biridir.



Verilişdə Azərbaycan kulinariyasının tarixinə və özünəməxsusluğuna görə qonşu xalqların mətbəxindən xeyli fərqləndiyi bildirilib, onun dolma, plov, piti və digər xörəkləri haqqında geniş danışılıb. Eyni zamanda, Belarus Azərbaycan İcmaları Konqresinin Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi milli mətbəxin təbliğinə xüsusi önəm verdiyi vurğulanıb.

# DİPLOMATİK MÜHARİBƏ: dünya siyasəti dalana dirənir

***Böyük Britaniyanın Solsberi şəhərində Rusiya Silahlı Qüvvələri Baş Kəşfiyyat İdarəsinin sabiq əməkdaşı Sergey Skripalın və onun qızı Yuliyanın zəhərləndirilməsindən sonra dünya siyasətində sözün həqiqi mənasında bir dram yaşanır. Məsələ London-Moskva münasibətlərinin sərhədini çoxdan aşıb. ABŞ və Aİ yaranmış situasiyada Böyük Britaniyanı haqlı saydıqlarını açıq bildirsələr də, bununla kifayətlənmirlər. Avropa İttifaqının 20-yə yaxın ölkəsi bəyan edib ki, Rusiya diplomatlarını deportasiya edə bilərlər. Martın 22-də Aİ-nin Rusiyadakı səfirinin geri çağırılması ilə həmin prosesə start verilib. XXI əsrdə ilk dəfədir ki, böyük geosiyasi güclər arasında qarşıdurma geniş miqyas almaqdadır. Mütəxəssislər proseslərin həmin istiqamətdə inkişafının bütün dünya üçün ciddi təhdid olduğu barədə xəbərdarlıq edirlər. O cümlədən yeni "soyuq müharibə" və silahlanma yarışının meydana gəlməsi istisna edilmir. Həmin kontekstdə "diplomat müharibəsi"nin mümkün geosiyasi sonucları ilə bağlı analizə ehtiyac duyuruq.***



## Diplomatiyadan imtina: onu nə əvəz edəcək?

Moskva-London xəttində gərginlik artmaqda davam edir. Hətta ortaya yeni təhlükəli çalarlar çıxır. Tərəflərin bir-birinə güzəştə getmək fikrində olmadığı Avropa İttifaqı və ABŞ-ın siyasi rəhbərliyinin məsələyə münasibətlərini açıqlamasından sonra bir daha aydın oldu. Görünür, ziddiyyət, sadəcə, qarşılıqlı surətdə diplomatları qovmaqla məhdudlaşmayacaq. Söhbət daha geniş və dərində olan məqamlardan gedir ki, yekunda qlobal siyasətin dalana dirənməsi proqnozu özünü doğrulda bilər.

Böyük Britaniyanın müdafiə naziri Gevin Uilyamsonun Rusiya "çəkilsin və sussun" kimi sözlər işlətməsindən sonra Kreml daha sərt təpkilər ortaya qoyur. G.Uilyamsonun "soyuq müharibə"dən də bəhs etməsi narahatlıqla qarşılanıb. Sonrakı proseslər məsələnin yalnız bir nazirin özəl fikirləri ilə bağlı olmadığını göstərdi. Aİ-nin siyasi rəhbərliyi müzakirələrdən sonra münasibətlərini ifadə etməkdədir. Yayılan informasiyalara görə, təşkilatın 20-yə yaxın dövləti Rusiya diplomatlarını qova bilər.

"The Times" nəşrinin yazdığına görə, Fransa, Almaniya, Polşa, İrlandiya, Hollandiya, Estoniya, Latviya, Litva, Bolqarıstan, Çexiya, Danimarka və daha doqquz ölkə bu fikirdədirlər. Onlar rusiyalı diplomatları Böyük Britaniya ilə həmrəylik nümayiş etdirmək üçün deportasiya edəcəklərini bəyan ediblər. Almaniyanın kansleri Angela Merkel də yaranmış münaqişədə Londonu haqlı bildiklərini ifadə edib.

Ekspertlər prosesin genişlənməsinin və yönümünün beynəlxalq münasibətlər sistemində ciddi problemlər meydana gətirə biləcəyini vurğulayırlar. Çünki söhbət faktiki olaraq Rusiya kimi böyük bir dövlətin diplomatik boykotundan gedir. Üstəlik, yaranmış vəziyyət böyük dövlətlərin geosiyasi liderlik uğrunda mübarizəsi ilə əlaqələndirilir. Əgər bu proqnoz doğrudursa, onda məsələ yalnız zəhərləndirilmə ilə izah oluna bilməz. Belə çıxır ki, pərdə arxasında daha ciddi faktorlar vardır.

Onların sırasında Yaxın Şərqdən Rusiyanın sıxışdırılması strategiyasının dayandığını ifadə edirlər. Belə ki, artıq Vaşinqton Suriya və İraqda Moskva-Tehran tandeminin güclənməsinə dözmək fikrində deyil. Müxtəlif səviyyələrdə söylənən fikirlər göstərir ki, Rusiya İranın regionda mövqelərinin daha da güclənməsi üçün çalışır. Digər tərəfdən, Ankaranın hərbi əməliyyatlarına etiraz etməməklə ABŞ-Türkiyə münasibətlərində problemlər yaratmağı hədəfləyib. Burada Kremlin iki əsas məqsədə çatmaq niyyətindən bəhs edilir:

Birincisi, Türkiyəni geosiyasi olaraq Qərbdən "qoparmaq", ikincisi, NATO-nun cənub cinahında boşluq yaratmaq. Bunlarla bağlı rusiyalı ekspertlər açıq danışırlar. Hətta bir sıra hallarda Moskvanın uğur qazandığından bəhs edilir. Şübhə yoxdur ki, Vaşinqton üçün Türkiyə faktoru strateji əhəmiyyət kəsb edir və bu səbəbdən baş verənlərə aktiv müdaxilə etməkdən çəkinməyəcək. Məsələn, ABŞ-ın tanınmış diplomatlarından biri "Rusiya Afrini Amerikaya yedirdə bilmədi", deyib. Yəni Kreml "Zeytun budağı" əməliyyatına etiraz etməməklə, əslində, Vaşinqton-Ankara xəttində gərginliyi artırmaq niyyəti güdüb. Bunun sübutu kimi, amerikalı diplomat Rusiyanın İdlibdə Bəşər Əsəd güclərini türk əsgərlərinin üzərinə yeritmək cəhdini misal göstərib. Lakin türklər peşəkar səviyyədə həyata keçirdikləri hərbi əməliyyatları ilə rəqiblərin heç birinə şans vermədilər. Afrin əməliyyatı isə tam sübut etdi ki, Türkiyə öz sərhədindən kənarda ciddi hərbi əməliyyat aparmaq iqtidarındadır.

## "Soyuq müharibə" və silahlanma: mübarizənin güzəştsiz üzü

Qərb-Rusiya qarşıdurmasını yüksəldən digər faktor Ukrayna və Baltikyanıda tərəflərin geosiyasi mübarizəni daha da intensivləşdirməsi ilə bağlıdır. Həmin istiqamətdə total surətdə rus dili və mədəniyyətinin sıxışdırılması prosesi vüsət almaqdadır. Ukrayna və Latviya bu sahədə daha fəal görünürlər. Belə təəssürat yaranır ki, "Skripal məsələsi" də bütöv bir prosesin bir fraqmentidir. Reallıqda dünyanın böyük gücləri arasında mübarizə daha geniş və çeşidli məzmun kəsb etməyə başlayıb.

Gözlənilir ki, həmin mübarizə Mərkəzi Asiyaya da sıçrasın. Bu halda daha ziddiyyətli bir mənzərə yaranmış olar. Və həmin reallıq prizmasından Rusiyanın diplomatik izolyasiyası prosesinin təhlükəli aspektləri aydın görünəcək. Konkret desək, dünya faktiki olaraq yeni bir "soyuq müharibə"nin və silahlanma yarışının astanasındadır. Buradan kimin sağ-salamat çıxa biləcəyini indidən iddia etmək risklidir. Çox güman ki, bütövlükdə dünya yeni səviyyədə təhdidlərlə üzləşəcək. Bu müstəvidə Avropa ölkələrinin Rusiya diplomatlarını qovmaq siyasətinin bir sıra geosiyasi həssas məqamları alovlandırması üzərində düşünmək lazım gəlir.

Belə görünür ki, Qərbdə Avrasiyadakı geosiyasi proseslərin gedişatına əsas olaraq Moskvanın təsir etdiyi qənaəti vardır. Qərbin böyük dövlətləri də buna qarşı öz siyasi mövqeyini sərt şəkildə qoyurlar. Deməli, qlobal geosiyasi mübarizənin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini deyə bilərik. Bu baxımdan bundan sonra dünyanı nələrin gözlədiyi xeyli düşündürücüdür.

Rusiyanın diplomatik təcridi Aİ-Rusiya münasibətlərində bir durğunluq meydana gətirə bilər. Hələ ilin əvvəlində mütəxəssislər bu ssenarini istisna etmirdilər. Onun reallaşması Avropa və Rusiya iqtisadiyyatına ciddi zərbə vura bilər. Hər bir halda Rusiyanın siyasi-diplomatik proseslərdən kənarda saxlanmasının təsirsiz ötüşə biləcəyinə ümid etmək sadəlövhlük olardı. Moskvanın daxili problemlərin həllinə daha çox diqqət yetirəcəyi ilə bağlı verdiyi vədlərin reallaşması da yuxarıda vurğulanan şərtlər daxilində kifayət qədər problemli görünür. Yəni Rusiya məcburən xarici siyasətdəki bir sıra məqamları aktivləşdirməli olacaq. Bu isə böyük bir məkanda sosial-iqtisadi vəziyyətin ağırlaşması ehtimalını ortaya atır.

Maraqlıdır ki, Rusiya məsələsində Aİnin əksər dövlətləri ortaq mövqe nümayiş etdirməyə başlayıblar. Bu nə deməkdir? Aİdə xarici siyasət daha sistemli aparılmağa başlanılıb? Bəlkə bu, keçici bir hadisədir? Bu sualların cavabları da Avropa İttifaqının taleyi baxımından maraq doğurur. Təşkilatın siyasi liderləri son vaxtlar inteqrasiyadan və siyasətdə mütəşəkkillikdən daha çox danışmağa başlayıblar. Görünür, Rusiya diplomatlarının çıxarılması faktoru da məhz əsas olaraq mövqe birliyinin nümayiş etdirilməsidir. Yəni müəyyən məsələlərdə üzv dövlətlər arasında fikir ayrılığı olsa da, prinsipial geosiyasi məqamlarda Aİ mütəşəkkillik nümayiş etdirə bilər. Hətta Böyük Britaniyanın Aİ-dən çıxması prosesi belə Londonu təşkilatın gözündə qiymətdən salmayıb.

**Düşünürük ki, bu, doğru olduqda, Moskvaya əhəmiyyətli mesaj verilir. Yəni hər nə olursa-olsun, Rusiya nə NATO-nu zəiflədə, nə də Aİ-də ciddi ziddiyyətlər meydana gətirə bilər!**

Buna baxmayaraq, qlobal miqyasda geosiyasi vəziyyətin daha gərgin hala gəlməkdə olduğunu inkar etmək mümkün deyildir. İki supergücün qarşıdurmasının daha da artması riskləri artırır. Yeni dünya müharibəsinin yaranması ehtimalı yox deyildir. Bəşəriyyət üçün ən təhlükəli gedişat da bundan ibarətdir. Həmin səbəbdən də diplomatik müharibənin nə dərəcədə dünyaya sərfəli olması üzərində də düşünmək gərəkdir. Bu qarşılıqlı diplomat qovma prosesinin məhdud dairələrdən başqa kimlərə xeyri vardır? Bu sualın müsbət cavabının olduğunu düşünmürük.

***Newtimes.az***

# Serjik gedir və qalır...

*Sarqis Artsruni: "Serj Sarkisyan öz vəzifəsi ilə vidalaşdıqdan sonra, nəinki siyasətdən getməyəcək, həmçinin, hakimiyyətin sükanını əlində saxlayacaq"*

***"Serj Sarkisyan bu gün - Ermənistan cəmiyyətində əks-təəssüratlara buraxaraq, prezidentlik vəzifəsi ilə vidalaşır. Sarkisyan - Ermənistanın 3 prezidentindən biridir ki, öz vəzifəsi ilə vidalaşdıqdan sonra, nəinki siyasətdən getməyəcək, həmçinin, hakimiyyətin sükanını əlində saxlayacaq. Kimsə şübhə etmir ki, məhz o, aprelin 17-dən sonra artıq parlament idarəçiliyi olan Ermənistanda baş nazir vəzifəsini tutacaq". Bu barədə Ermənistanın müxalifyönlü "1in.am" saytının rusdilli bölməsində siyasi analitik Sarqis Artsruni qeyd edib.***





### "Kifayət qədər insanlar var ki, onlar Sarkisyanın bioqrafiyasının bu hissəsinin həddindən artıq şişirdildiyini, hətta uydurulduğunu iddia edirlər"

Artsruni öncəki illərə ekskurs edərək, yazır ki, 1988-ci il "hərəkatı" (dırnaqlar bizimdir və burada DQ-də erməni separatçılığı və ekstremizminin əsası nəzərdə tutulur-R.N.) olmasaydı, Serj Sarkisyan partiya-dövlət rütbəsində mühüm simaya çevrilərdi. SİTAT: "Serj Sarkisyanın marksizm-leninizm ideologiyasına inanmasını çətin deyə bilərik, yaxud hələ cavanlıq vaxtlarından dövlət işlərinin onu cəlb etməsi qənaətinə gələ bilərik, ancaq o öz yerini sovet zamanlarında tutmağı bacardı. Serj Sarkisyan 1979-cu ildən 1988-ci ilə qədər Stepanakertin (Xankəndinin-R.N.) şəhər komitəsinin komsomol təşkilatından DQ-nın birinci katibinin birinci müavini statusuna qədər yüksəlib".

Beləliklə, Sarkisyanın sovet hakimiyyəti zamanındakı sonuncu vəzifəsinin, hətta bu gün də onun spekulyasiya etməsinə səbəb olduğunu yazan erməni analitiki, onu nəzərdə tutub ki, sözügedən "hərəkatın" ilk günlərindəcə, vilayətin partiya təşkilatları mitinqlərlə bağlı qadağaları aradan qaldırmağa çalışırdılar. Serj Sarkisyan "erməni ümummilli hərəkatı" ilə isti münasibətlərini qurdu və "Artsaxda" (dırnaqlar bizimdir-R.N.) təsirli mövqelərə sahib oldu. SİTAT: "Serj Sarkisyanın rəsmi bioqrafiyasında onun 1989-cu ildən, 1993-cü ilə qədər "DQR"in özünümüdafiə komitəsinə rəhbərlik etdiyi bildirilir. Bu, ehtimal etməyə zəmin yaradır ki, Ermənistanın mövcud prezidenti 4 il "DQR"in "müdafiəsini" (separatçılıq siyasətini-R.N.) koordinasiya edib. Xatırladaq ki, Serj Sarkisyan bu statusunda bir neçə dəfə Ermənistan televiziyasına müsahibələr verərək, həmin dövrlərin müxalifətinə qarşı kəskin fikirlər səsləndirib. Lakin Ermənistanda da, "Artsaxda" da kifayət qədər insanlar var ki, onlar Sarkisyanın bioqrafiyasının bu hissəsinin həddindən artıq şişirdildiyini, hətta uydurulduğunu iddia edirlər. Çünki həmin vaxtlarda "Artsaxda" "özünümüdafiə gücləri komitəsi" adı altında heç bir orqanın olmadığı vurğulanır".

Sarqis Artsruni sözügedən analitikasında yazır ki, guya Sarkisyan bir neçə aylıq "Artsaxı" tərk edir və bəzi iddialara görə, Moskvaya gedir. SİTAT: "Bəziləri iddia edirlər ki, Serj Sarkisyan Moskvada olduğu müddətdə belə, "Artsax"ın "özünümüdafiəsinə" aid olan işlərlə məşğul olub, bəziləri isə deyirlər ki, onun Moskvaya getməsi həmin vaxtlar DQ ermənilər arasında üstünlüyə sahib olan Samvel Babayanla arasında olan intriqalarla bağlıdır".

Analitik yazıda S.Sarkisyanla bağlı digər maraqlı amilə toxunulur. Belə ki, Artsruni yazır: "Bəllidir ki, Serj Sarkisyan 1993-cü ildə Vazgen Sarkisyanın dəstəyi ilə Ermənistanın müdafiə naziri oldu. İnformasiyalara malik olan mənbələr, həmçinin, yazırlar ki, Sarkisyan çox qısa müddət ərzində Levon Ter-Petrosyanın sevimli nazirlərindən oldu. Deyilənə görə, prezidentlə naziri yalnız partnyorluq və dostluq münasibətləri deyil, eləcə də, şahmat oyununa olan sevgi də birləşdirirmiş".

### "Sarkisyanın təyinatı Levon Ter-Petrosyan üçün "öldürücü" oldu: hakimiyyət daxilində balans pozuldu və bu, son anda - 1998-ci ilin fevralında saray çevrilişi ilə nəticələndi"

Erməni analitiki daha sonra yazır: "Serj Sarkisyan 1995-ci ildə milli təhlükəsizlik naziri olur və elə bir zamanda ki, "Vahan Ovanisyan+30" işi ifşa olunur. Deyilənə görə, Serj Sarkisyan bu gün koalisiya əməkdaşlığı etdiyi "Ermənistan Respublikaçı Cəbhəçilər Hərəkatı" terror təşkilatının rəhbərlərini həmin vaxtlar məyus edir. Ümumiyyətlə, Serj Sarkisyan müxalifətə qarşı ən ağır ölçülərin götürülməsi tərəfdarı kimi çıxış edib. Təsadüfi deyil ki, 1996-cı ildə keçirilmiş rezonanslı prezident seçkilərindən sonra o, DİN və MTN-nin birləşməsi sayəsində supernazir olur. İki nazirliyin birləşməsi və Sarkisyanın təyinatı Levon Ter-Petrosyan üçün "öldürücü" oldu: hakimiyyət daxilində balans pozuldu və bu, son anda - 1998-ci ilin fevralında saray çevrilişi ilə nəticələndi. Bu çevrilişin əsas adamı isə Serj Sarkisyan idi".

S.Artsruni həmin illərə də toxunaraq, yazır ki, Robert Koçaryanın prezidentliyinin ilk ilində Serj Sarkisyan DİN və MTN-nin naziri olaraq qaldı və bununla yanaşı, hakimiyyətin əsas üzvlərindən biri kimi mövqeyini saxladı. SİTAT: "Lakin 1998-ci ilin sonunda və 1999-cu ilin əvvəlində hakimiyyət daxilində münasibətlər pozulmağa başladı. Vazgen Sarkisyan-Karen Demirçyan alyansının mövcudluğu və Vazgen Sarkisyanın ətrafından hesab edilən iki generalın - müdafiə nazirinin müavini Vaqram Xoorxoruninin və daxili qoşunların komandanı Artsrun Marqaryanın öldürülməsi Robert Koçaryan-Serj Sarkisyan tandemini məhv etdi. "Miasnutyun" alyansının 1999-cu ilin parlament seçkilərində qələbə qazanması və Vazgen Sarkisyanın baş nazir postuna təyin olunmasından sonra Serj Sarkisyan nazirlər kabinetindəki yerini qorudu. Lakin bu dəfə MTN-dəki nazir vəzifəsini saxlaya bildi. Çünki Vazgen Sarkisyan birləşmiş nazirlikləri buraxmaq qərarı vermişdi.

1999-cu ilin 27 oktyabr qətliamından sonra Serj Sarkisyanın əhatə dairəsi daha da daralmağa başladı. Onu, ən azından, vəzifəsinə məsuliyyətsiz yanaşdığına görə ittiham edirdilər. Sonda isə "Miasnutyun" alyansının tələbinin ardınca, Serj Sarkisyan istefaya göndərildi və sonrakı altı ayda Ermənistan prezidenti aparatının rəhbəri, eyni zamanda, təhlükəsizlik şurasının katibi postları ilə kifayətlənməli oldu".

### "Seçkilərdən qabaq Andranik Marqaryan qəfildən ölür və bundan sonra Serj Sarkisyan onu həm baş nazir, həm də Respublika Partiyasının sədri vəzifələri ilə əvəz edir"

Erməni analitiki, həmçinin, yazır ki, 2000-ci ilin mayından sonra vəziyyət kardinal şəkildə dəyişildi - baş nazir Aram Sarkisyan hakimiyyətdən uzaqlaşdırıldı və Robert Koçaryan həmin hakimiyyəti öz əlində cəmləşdirdi. Serj Sarkisyan sonrakı 7 ildə müdafiə naziri vəzifəsini icra etdi. SİTAT: "2003-cü ilin prezident seçkiləri zamanı Serj Sarkisyan Robert Koçaryanın seçki qərargahına rəhbərlik edib və həmin ərəfələrdə siyasət və ekspert dairələrinə açıq olaraq bildirib ki, o, Koçaryanın xələfi olacaq. Lakin Serj Sarkisyan çox yəqin ki, Robert Koçaryanı hamıdan yaxşı tanıyırdı və onun dəstəyinə deyil, özünə güvənirdi. Serj Sarkisyan, demək olar ki, 2007-ci ildə keçirilmiş parlament seçkilərinin Respublika Partiyasının proporsional siyahısında Vazgen Sarkisyanın presedentini təkrar edib. Seçkilərdən qabaq Andranik Marqaryan qəfildən ölür və bundan sonra Serj Sarkisyan, onu həm baş nazir, həm də Respublika Partiyasının sədri vəzifələri ilə əvəz edir. Baxmayaraq, Serj Sarkisyan, Robert Koçaryan hakimiyyəti daxilində ən çox təsir etməyə malik şəxs kimi seçilirdi, Koçaryan öz hakimiyyətini xarici işlər naziri Vardan Oskanyana dövr etmək fikrindəydi.

Ancaq Robert Koçaryana iki məsələ mane oldu. Bunlar - birincisi Serj Sarkisyanın rəhbəri olduğu Respublika Partiyasının parlament seçkilərində qələbə qazanması, ikincisi isə Levon Ter-Petrosyanın siyasətə dönüşü və prezidentlik ambisiyasını ortaya qoymasıdır. Serj Sarkisyan səsli-küylü prezident seçkiləri nəticəsində və 1 mart hadisələri fonunda dövlət başçısı postuna sahib oldu".

### On illik hakimiyyətdə olduğu dövrdə ölkə əhalisinin sayı azaldı, iqtisadiyyat çökdü, yoxsulluq həddi və sosial problemlər durmadan artmağa başladı...

Sarqis Artsruni analitik yazısının sonunda Serj Sarkisyanın hakimiyyətdə olduğu dövrlərdə Ermənistanı sürüklədiyi bəlaları da sadalayıb və qeyd edib ki, onun on illik hakimiyyətdə olduğu dövrdə ölkə əhalisinin sayı azaldı, iqtisadiyyat çökdü, yoxsulluq həddi sosial problemlər durmadan artmağa başladı və s. "Bu gün Serj Sarkisyan prezidentlik postunu tərk edir, lakin hakimiyyəti, hətta iqamətgahını saxlayır. Belə ki, aprelin 17-dən başlayaraq, bu dəfə baş nazir qismində ölkəni idarə edəcək"-deyə erməni analitiki siyasi təhlilini yekunlaşdırıb.

**Rövşən RƏSULOV**

## "The Daily Caller" qəzetində Ermənistanda kədərli vəziyyət barədə məqalə dərc edilib


JACOB KAMARAS
Editor for the Jewish News Service

Recently, the precarious position of Armenia in its own region and on the global stage came to a fore when a prominent Armenian politician revealed the stark truth about Armenia's economic weakness, compared with the strength of adversary, Azerbaijan. The U.S., its policymakers and, in particular, Congress should take notice.

Speaking with the Vestnik Kavkaza website this month, lawmaker Aram Manukyan of the Armenian National Congress party admits that Armenia "plays almost no role" when it comes to interstate economic ties in Eurasia.

"We are bypassed by all regional and international routes — transport, railway, oil, gas, any others...we simply do not exist in the Caucasus, and this situation has not changed in last 20 years," Manukyan says. "Over the years, we have been bypassed by a lot of projects, including the Baku-Tbilisi-Ceyhan pipeline and the Baku-Tbilisi-Kars road, which were built through Georgia instead of Armenia, and now these are the North-South International Transport Corridor and China's Silk Road."

Manukyan is lamenting Yerevan's crucial absence from the "New Silk Road" pioneered by Azerbaijan, Turkey and Georgia, which last year launched the

***Amerikada çıxan "The Daily Caller" qəzetində "Jewish News Service" nəşrinin sabiq baş redaktoru Ceykob Kamarasın Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Ermənistanda yaranmış dözülməz iqtisadi və siyasi vəziyyət barədə məqaləsi dərc edilib.***

Ermənistanı "durğunluq vəziyyətində olan zibilxana" adlandıran müəllif erməni deputat Aram Manukyanın bəyanatlarına istinadla yazır ki, deqradasiyaya uğramış bu ölkədə vəziyyət getgedə pisləşir, Ermənistan "Avrasiyada dövlətlərarası iqtisadi münasibətlərdə praktiki olaraq heç bir rol oynamır".

Müəllif A.Manukyandan sitat gətirərək qeyd edir ki, Ermənistanı regional və beynəlxalq miqyaslı bütün layihələrdən, o cümlədən dəmir yol və enerji layihələrindən kənarda qalır.

Manukyan təəssüflə vurğulayır ki, Azərbaycan, Türkiyə və Gürcüstanın təşəbbüsü ilə başlanmış "Yeni İpək Yolu" kimi mühüm layihədə Yerevan iştirak etmir. Keçən il həmin layihə çərçivəsində bu ölkələri birləşdirən, Avropa ilə Çin arasında yük və sərnişin daşımalarını təmin edən, Ermənistandan yan keçən Bakı-Tbilisi-Qars dəmiryol xətti istifadəyə verilib.

Ekspert yazır ki, eyni zamanda, Azərbaycan artıq bu il Türkiyəyə təbii qaz nəql edəcək. Sonra, 2019-cu ildə isə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün mühüm element olan "Şahdəniz-2" yatağından çıxarılan təbii qaz Avropaya nəql ediləcək. Ermənistanda baş alıb gedən korrupsiya ölkədə vəziyyəti daha da gərginləşdirir. Bu səbəbdən, sağlam düşüncəli investorların heç biri Ermənistanda sərmayə qoymağa risk etmir.

Azərbaycan və Gürcüstan öz iqtisadiyyatlarını qərb ölkələri, ABŞ və Avropa ilə sıx münasibətlər əsasında qurur. Ermənistanın geridə qalmış iqtisadiyyatı əvvəlki kimi yenə də kənd təsərrüfatından asılıdır, inflyasiyanın sürətlə artması və ciddi zəka axını müşahidə olunur.

Kamaras yazır ki, Ermənistanın bu "girdab"dan çıxmasının yeganə mümkün yolu Azərbaycan ilə münaqişəni həll etmək və iqtisadi cəhətdən güclü olan bu dövlətlə yaxınlaşmaqdır. Bu məqsədə nail olmaq üçün Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunun işğalından əl çəkməlidir. BMT Təhlükəsizlik Şurasının bir neçə qətnaməsi də bunu tələb edir.

Kamaras sonda yazır ki, ABŞ Qafqazdakı bu reallığı nəzərə almalıdır. ABŞ başqa bir ölkənin siyasi vassalı olan, dilənçi vəziyyətinə düşmüş Ermənistanla deyil, regionun "qərbyönümlü iqtisadi ulduzları" olan Azərbaycan və Gürcüstanla müttəfiqlik etməlidir.

# Türkiyənin qələbəsi insanlığın qələbəsidir



***Terrorla mübarizə adı altında terrorçu qruplaşmaların ABŞ tərəfindən silahlandırılması Türkiyə Silahlı Qüvvələrinin Afrinə qarşı "Zeytun budağı" əməliyyatını həyata keçirməyə vadar etdi. Zeytun məhsulları istehsal edərək, terrorçu qruplara maliyyə dəstəyi təmin edən Afrin kantonunun yerli əhalisinə dostluq rəmzi olaraq, əməliyyat "Zeytun budağı" adı altında aparıldı. Terrorla əlaqəli olanlara isə "budaq" vasitəsilə türksayağı tərbiyə veriləcəyi mesajı da aydın şəkildə bəlli olurdu.***

Bölgədə bir çox regional və dünya güclərinin maraqları danıla bilməz. Hava və dəniz limanlarını Rusiyaya 49 illiyə istifadəyə verməklə Suriya prezidenti hakimiyyətini qorumağa çalışırdısa və hətta müqavilə belə bağlanılmışdısa, deməli, yaxın gələcəkdə Rusiyanın Əsədin hakimiyyətdə qalmasını dəstəkləyəcəyinə zərrə qədər şübhə ola bilməz. Fərat çayının şərq sahilinin Əsədin nəzarətində qalmasında, ən azından Rusiya tərəfi çox maraqlıdır. Fəratın qərb sahilini isə özünün və YPG-nin nəzarətində saxlamağı planlaşdıran amerikalılarla ruslar arasında sanki bir razılaşma var. Əslində, "Rusiya ilə Fərat çayı boyunca razılaşmamız var" deyən ABŞ Dövlət katibi Reks Tillerson, "Stanford"da çıxış edərkən, Cənub-Qərbi Suriyada ABŞ, Rusiya və İordaniya ilə birlikdə çalışdığını deməklə, bunu etiraf edirdi.

Türkiyənin öz sərhədlərində ABŞ, Rusiya və İordaniyanın birgə fəaliyyətlərinə səssiz qalacağını düşünmək sadəlövhlük olardı. Rəsmi Ankara üçün sirr deyildi ki, ABŞ-ın əsl məqsədi Türkiyə sərhədi boyunca "kürd dəhlizi" yaratmaqdır. Bu dəhliz vasitəsilə Kobanını Afrinlə birləşdirib, yaratmaq istədiyi "kürd dövləti"nin Aralıq dənizinə çıxışını təmin etmək və Türkiyənin ərəblərlə əlaqəsini kəsmək planın qayəsini təşkil edirdi. Bu isə Türkiyə üçün həyati təhlükəsizlik problemləri deməkdir və buna razılaşacağını düşünmək belə olmaz.

## Müttəfiq olmasına baxmayaraq, terrorçuları dəstəkləməsi ABŞ-ın növbəti dəfə ikili standart siyasət yürütməsidir

Təhlükəsizliyinin təminatı və qanuni dövlət maraqları çərçivəsində Türkiyənin apardığı əməliyyatlar səbəbindən Afrinə görə Fransa BMT-nin Təhlükəsizlik Şurasının iclasını da topladı. Təhlükəsizlik Şurasını toplamaqda bölgədəki vəziyyətdən narahatlıq keçirdiyini nümayiş etdirmək səyləri də açıq-aydın bilinirdi. Amma görəsən, bu narahatlıq keçirən siyasilər, Suriya bir dövlət olaraq, məhv edilərkən, harada idilər? Terror təşkilatları azyaşlı uşaqları və qadınları "canlı bomba" kimi istifadə etdikləri vaxt niyə Təhlükəsizlik Şurasının iclasını toplanılmırdı və niyə etiraz edilmirdi? Terrorçulara verilən silahlarla Türkiyə vətəndaşları öldürüləndə, niyə etiraz edilmirdi? Bu siyasilərin təhlükəsizliklə bağlı toplantıları, narahatlıqları yersiz olduğu kimi, səmimiyyəti də inandırıcı deyil. Nəinki Fransa, hətta sənəddə və sözdə Türkiyənin müttəfiqi olan ABŞ-ın özünün də Türkiyə ilə deyil, terrorçularla eyni maraqda və mövqedə olduğu inkar edilə bilməz.

Türkiyənin terrorizmlə bağlı qayğıları olduğu halda müttəfiqi olan ABŞ bu qayğılara etinasız yanaşırdı. Türkiyə təhlükəsizliyi ilə bağlı narahatlıqlarını dəfələrlə bildirdisə də, ABŞ öz müttəfiq mövqeyini ortaya qoymurdu. Əraziləri terror təşkilatlarından birgə təmizləməyi təklif etdiyi zaman da, ABŞ müşahidəçi mövqedə durdu. ABŞ Türkiyə ilə strateji tərəfdaş olduğu halda, terrorçularla əməkdaşlıq etməkdən də çəkinmədi. Türkiyə öz vəsaiti hesabına ABŞ-dan silah almaq istəyən zaman bu silahları türklərə satmadığı halda, terror təşkilatına həmin silahları pulsuz verirdi. Bu, necə strateji ortaqlıqdır? Bu strateji ortaqlıqdan çox hiyləgərcəsinə terrorizmə dəstək verməkdir. Bu ABŞ-ın növbəti dəfə ikili standart siyasət yürütməsidir. Yaxud bu, ən azından, ədalətsiz və qəbul olunmamış, əks- mövqe kimi dəyərləndirilə bilər. Elə bil, ABŞ terroru dəstəkləməkdə maraqlıdır və biz bunun dəfələrlə şahidi oluruq. Eyni zamanda, bunun da şahidi olduq ki, növbəti dəfə də bu fövqəldövlət yanlış siyasət yürütdüyü bütün dünyaya bəlli oldu. İndi dəstəklədikləri, silahla təmin etdikləri terror təşkilatı qaçır, Türkiyə isə öz qələbəsini qeyd edir. Türkiyəyə pul müqabilində belə satmadıqları, terrorçulara isə, təmənnasız olaraq verdikləri silahlar da türk ordusunun əlinə keçir. Təbii ki, bu, ədalətin ikiüzlülük, xeyirin də şər üzərində qələbəsinin məntiqi nəticəsidir.

## Bu mübarizəni Əfqanıstana və Vyetnama bənzədənlər nəticəni gördükdə, çox utandılar

Türkiyə ordusunun Afrini alacağı xəbərləri istehza ilə qarşılanırdı. Kürdlər onların Afrində dirənəcəkləri mesajını verirdilər. Səngərlər, barrikadalar qururdu və bunu nümayiş də etdirirdilər. Amma heç bir nəticəsi olmadı. Türkiyə ordusu Afrini mühasirəyə aldıqdan heç 48 saat keçməmiş YPG təslim oldu və səssiz-səmirsiz şəhəri qoyub qaçdı. Kürdlər Qərbin Türkiyəyə təzyiq göstərəcəyinə, Afrin mərkəzinin tutulmasına mane olacağına ümid edirdilər və son ana qədər okeanın o tayından kömək gözlədilər. Bu isə baş vermədi, çünki Pentaqonun Afrində kürdlərə açıq dəstək verməsi mümkün deyildi. Nəticədə, YPG Suriyadakı 3 kürd vilayətindən birini itirdi. Maraqlısı budur ki, eynilə Kərkükdə olduğu kimi, terrorçuları silahla təmin edənlər səssiz qaldı, Vaşinqton susdu və mövqesizlik sərgilədi.

Türk ordusu necə savaş aparmaq lazım olduğunu və ədalətli müharibənin necə olduğunu sərgiləməklə bütün dünyaya növbəti dəfə mesaj verdi. Mülki əhalidən bircə nəfərin belə xəsarət almaması şərtilə geniş bir ərazi qısa zaman kəsiyində terrorçulardan azad edildi. Türk ordusu bir daha qəhrəmanlıq nümunəsi kimi yaddaşlara yazıldı. Bu mübarizəni Əfqanıstana və Vyetnama bənzədənlər nəticəni gördükdə, çox utandılar. Türk ordusu Suriyanı terrorçulardan təmizlədikdən, ərazini ələ keçirdikdən sonra yerli əhalinin məskunlaşmasını təmin etməklə, ən humanist siyasət yürütdüyünü təsdiq etdi. Türkiyənin heç bir ərazi iddiasında olmadığı isbat olundu. Əksinə, Türkiyə sülhün və təhlükəsizliyin təminatçısı kimi bütün dünyaya bir daha tanındı.

## Türk əsgəri həmişə müharibələrdə qızıl ləyaqət göstərib

Birinci Dünya müharibəsi zamanında Çanaqqalada gedən döyüşlərin dünyanın sonuncu alicənab müharibəsi olduğu barədə dünya səviyyəsində qəbul edilmiş fikirlər alt-üst oldu və türk ordusunun bu alicənablığa sadiq qaldığı bir daha sübuta yetirildi. Bəli, Osmanlı ordusu, türk əsgəri həmişə müharibələrdə qızıl ləyaqət göstərib. Dünya ictimaiyyəti bu ləyaqətin yenə də şahidi oldu. Müharibədə qızıl ləyaqət göstərməyin nə demək olduğunu biz, torpaqları erməni işğalçıları tərəfindən zəbt edilən, vandallığın şahidi olan azərbaycanlılar çox yaxşı bilirik. Erməni əsilli terrorçuların, qaniçən canilərin Xocalı soyqırımını törədən zaman bəşəriyyətə hansı insanlıq dramını yaşatdığının şahidiyik. Azərbaycan torpaqlarını zəbt etməklə kifayətlənməyən erməni vandallar ərazidə mədəni irsə aid abidələri dağıtmaqdan da çəkinmədilər. Üstəlik, insanlığa sığmayan vəhşilik nümayiş etdirərək, dinc əhaliyə qarşı amansızlıq etdilər. Yaşından, cinsindən asılı olmayaraq, kimsəyə acımadan amansızcasına insanlara işgəncə verdikdən və qətlə yetirdikdən sonra, hətta cəsədlər üzərində təhqiramiz hərəkətlərə də yol verdilər. Ermənilərin timsalında dünya ictimaiyyəti bu kimi vandallığın şahidi olsa da, Afrində türk ordusunun müharibə mədəniyyətini və insanlığını müşahidə etdi. Mülki əhalidən heç kimin xəsarət almasına yol verməyən, əksinə, dinc əhalinin terrorçulardan azad edilməsi, yerli əhalinin öz yurd-yuvalarına qaytarılmasını təmin edən savaş aparmaqla türk ordusunun qızıl ləyaqətə sahib olduğunu bir daha təsdiq etdi. Təsdiq etdi ki, türk ordusu budur və əsrlər öncə olduğu kimi əsrlər sonra da ləyaqətlə müharibə aparır. Türk ordusunun müharibə mədəniyyəti, əsrlər əvvəl olduğu kimi, yenə də islam əxlaqına söykənir və humanizm prinsipləri daim prioriet hesab olunur. Tarix boyu Türkiyə apardığı müharibələrdə, mücadilələrdə zalımlara düşmən, məzlumlara dost olub. Sülh naminə, əmin-amanlıq üçün, insanlıq uğrunda daim mübarizə apardığı bütün dünyaya bəllidir və "Zeytun budağı" əməliyyatı da bu sıradan biri kimi dəyərləndirilir. Bu baxımdan, "türk ordusu var olsun" deyənlər, əslində, insanlığın var olmasını istəyirlər.

Türk ordusunun və insanlığın var olmasını daha çox istəyən Azərbaycan xalqıdır. Əvvəla, ona görə ki, Türkiyə bizim üçün, sözün həqiqi mənasında, qardaş ölkədir və bu ölkənin maraqları bizim maraqlarımızdır. Ulu Öndərimiz Heydər Əliyevin təbiri ilə desək, "biz bir millət, iki dövlətik". Biz eyni milli mənsubiyyəti bölüşürük və bu baxımdan, təəssübkeşlik hissi ilə hər zaman Türkiyənin yanındayıq. Digər tərəfdən də, əgər Türkiyə və türk ordusu insanlıq normalarını tərənnüm edirsə, niyə də onun prinsipləri alqışlanmamalıdır? Azərbaycan insanpərvərlik siyasətinə, humanizmə qiymət verir və bu qiyməti verənləri də daim dəstəkləyir.

Azərbaycan Türkiyənin hər zaman yanındadır, siyasətini dəstəkləyir və öz dostluq və qardaşlıq prinsplərinə sadiqdir. Bu baxımdan, Türkiyənin, türk ordusunun qələbəsi həm də bizim qələbəmizdir. Bu qələbəyə sevinənlər içərisində ən öndə duran Azərbaycan xalqıdır. Qarabağ qaziləri, şəhid valideynləri, ümumilikdə, 50 nəfərə yaxın şəxsin iştirak etdiyi "Qardaşlığımız əbədidir" platformunun təşkilatçılığı ilə baş tutan aksiya və bunun əyani şahidi olan dünya ictimaiyyətinin bu qardaşlığa zərrə qədər şübhəsi qalmadı. Səfirliyin qarşısında "Qarabağ-Afrin-Türkiyə" şüarını səsləndirən iştirakçılar dərdlərimizin bir olduğunu bəyan edir və Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu elan edirdi.

Biz əminik ki, tezliklə Azərbaycan bayrağı da Şuşada, Xankəndində və bütün Qarabağ ərazisində Türkiyənin bayrağı ilə yanaşı dalğalanacaq. Ona da əminik ki, bizim qələbəmiz də, sevincimiz də Türkiyənin qələbəsi və sevinci olacaq.

***İnam İMRANOĞLU***



# İsa Qəmbərin ümidsiz diaqnozları

***Qısa müddət ərzində "Milli-Strateji Düşüncə Mərkəzi" sədri İsa Qəmbərin bir neçə dəfə tibb müəssisəsinə müraciət etməsi səhhətində olan ciddi problemlərdən xəbər verir.***

Təkcə Azərbaycanda olan tibb müəssisələrində deyil, hətta Türkiyədə, Ankara Hacettepe Universiteti xəstəxanasında belə müalicə alan İ.Qəmbər, yenə də müalicə məqsədi ilə ölkə hüdudlarından kənarda olan tibb müəssisəsinə müraciət edib və bu məqsədlə hal-hazırda Almaniyadadır. Görünür, Türkiyədə müalicə alması "Milli-Strateji Düşüncə Mərkəzi" sədrinin ürəyincə olmayıb. Yəqin ki, məhz bu səbəbdən, dünyanın daha qabaqcıl tibb müəssisələrinə müraciət etməyə məcbur olub.

Eks-başqanın artıq bir neçə dəfə, həm də ardıcıl olaraq, ayrı-ayrı xəstəxanalara müraciət etməsi, müayinə və müalicəsi səhhətində olan ciddi problemlərdən xəbər verir. Əks halda, ötən ayın ikinci yarısında Türkiyədəki xəstəxanadan dönən eks başqan qısa müddətdən sonra müalicə məqsədilə Almaniyaya üz tutmazdı.

Dünyaca məşhur olan, tanınmış Ankara Hacettepe Universiteti xəstəxanasının İ.Qəmbəri müayinə və müalicə edən həkiminin "Səs" İnformasiya Agentliyinə verdiyi açıqlamasından bəlli olur ki, sabiq başqanın siyasi fəaliyyətlə məşğul olması mümkün deyil. Hətta ev şəraitində, müalicəsini ambulator qaydada davam etdirməsi üçün nəzarət altında olması məsləhət görülüb və səhhətinin yaxşılaşması üçün zəruri tədbirlərin vacibliyi bildirilib. Aktiv fəaliyyətdən uzaq olması barədə xüsusi tapşırıqlar alan sabiq başqan, həqiqətən də, siyasi səhnədən bir müddətdir ki, uzaqdır və bu uzaqlıq da bu vaxta qədər kölgəsi altında olan Müsavat partiyasında baş verən qarmaqarışıqlıqda özünü büruzə verir.

### İsa Qəmbər xəstəliyinin acı nəticələrini, hətta ölümlə də nəticələnə biləcəyini başa düşür



Statistik göstəricilərə nəzər salsaq, görərik ki, dünyasını dəyişənlər içərisində ürək, qan-damar sistemi xəstəliklərindən əziyyət çəkənlər çoxluq təşkil edir və bir sözlə, bu xəstələr daha böyük risk qrupuna aiddirlər. Nəzərə alsaq ki, sabiq başqan, məhz bu tip problemlərlə qarşı-qarşıyadır, onun siyasi proseslərdən uzaqda qalması, hazırda öz səhhəti, sağlamlığı və həyatda qalması üçün mübarizə aparması başadüşüləndir. Yəni İ.Qəmbər artıq elə bir yaş dövründədir ki, əziyyət çəkdiyi xəstəliyin acı nəticələrini, hətta ölümlə nəticələnə biləcəyini də başa düşmək iqtidarındadır və çox güman ki, bunu qəbul etmək məcburiyyətində qalıb. Əlbəttə, yaşamaq üçün mübarizə etməsi, tibb müəssisələrinə də müraciət etməsi təbii haldır və görünür, yaşamaq həvəsindədir deyə təslim olmaq istəmir.

Almaniyadan aldığımız məlumat bizi tamamilə fərqli bir proqnoz verməyə vadar edir. Yəni qeyd etdiyimiz kimi, səhiyyə sahəsində daha çox inkişaf etmiş bu əcnəbi ölkə həkimləri tərəfindən müayinə zamanı "Milli-Strateji Düşüncə Mərkəzi" sədri barədə ümidverici heç bir söz verilməyib. Əksinə, tamamilə ümidsiz diaqnozlar qoyulub. Hətta sabiq başqanın xəstəxanada yerləşdirilməsinin və müalicəsinin əbəs yerə olduğunu bildirən həkimlər, onu da xatırladıblar ki, xəstəxanada yerləşdirilməsi, görülməsi mümkün olan hər hansı tədbirlər belə nəticə etibarı ilə heç nəyi dəyişməyəcək.

### Hər ehtimala qarşı, nəşin gətirilməsinə müsavatçılar hazır olmalıdır

Almaniyadakı həkimlərin İ.Qəmbər barədə məsləhəti, əsasən, bundan ibarət olub ki, onun ailəsinin yanında olması daha məqsədəuyğundur. Ola bilsin ki, həkimlər onun son günlərini yaşadığını təxmin edirlər. Qeyd etdiyimiz kimi, ürək və qan-damar xəstəlikləri elə bir risk qrupuna aid edilir ki, hər an ürək öz fəaliyyətini dayandıra, həyat əlamətləri yox ola və xəstə dünyasını dəyişə bilər. Hətta ürək əməliyyatları öncəsi xəstənin yaxınlarından alınan rəsmi razılıq da, o deməkdir ki, əməliyyat zamanı belə xəstədə olum faktının qeydə alınması mümkündür və nəzərə alsaq ki, yaşlı insanlarda bu risk daha böyükdür, bu baxımdan, Almaniyadakı həkimləri də başa düşmək olar.

Təbii ki, həkim yalnız öz tövsiyələrini verir və ona əməl edib-etməmək qalır xəstənin, yaxud onun sahibinin boynunda. Vəziyyətin kritik olduğunu müəyyən edən Almaniya həkimləri, çox güman ki, əlavə problemlərin yaşanmaması, izafi vəsaitlərin sərf edilməməsi üçün belə bir tövsiyə veriblər. Görünür, həkimlər əbəs yerə xəstəxana xərclərinin çəkilməsindən tutmuş, ən aktual qayğılardan xəstəni azad etmək niyyəti güdürlər. Nəzərə alsaq ki, ölüm faktı təsdiq edildikdən sonra ekspertizadan başlamış, nəşin Azərbaycana gətirilməsinə qədər hər biri qayğı, nəzarət və maliyyə vəsaiti tələb edir, xəstə sahiblərinə həkimlərin bu tövsiyəsini yüksək dəyərləndirmək düşür. Həkim tövsiyəsi dinləniləcək, ya yox, bu barədə deyə bilmərik, amma dinlənilməyəcəksə, hər ehtimala qarşı, nəşin Azərbaycana gətirilməsi üçün müsavatçılar hazır olmalıdırlar.

***İnam HACIYEV***

# "Əli Kərimli satqınlıqla pul qazanmağa çalışır"

*Təhmasib Novruzov:*
*"Əli Kərimlinin övladlarına xaricdə xərclədiyi pulların miqdarı 1 milyon manatdır"*



Müxalifət dayaqlarını itirdikcə, xarici maraqlı dairələrlə əlaqələrini daha da inkişaf etdirir və sifarişlər əsasında pozuculuq aktlarına daha həvəslə yerinə yetirməyə cəhdlər göstərir. "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov da "Səs" qəzetinə açıqlamasında bildirdi ki, dağıdıcı müxalifət düşərgəsini təmsil edən şəxslərin bir məqsədi var o da müxalifətçilik fəaliyyəti ilə pul qazanmaqdır: "Bu, müxalifətin biznesidir. Əslində, biznes halal zəhmətə əsaslanaraq, halal əməklə qazanılmalıdır. Amma müxalifət özlərinin biznesini xaricdən müəyyən dairələr tərəfindən gələn pullarla qurublar. Müxalifətin bu biznesi haram biznesdir. Demək olar ki, bu gün konkret müxalifətin bu fəaliyyəti siyasi fəaliyyət deyil, biznes fəaliyyətidir. Ən azından, Ə.Kərimlinin övladlarının xaricdə oxuması və orada xərclədiyi pullarla bağlı son aparılan hesablamalar və ortaya çıxan təxminən 1 milyon manat məbləğində vəsait hər şeyi açıq şəkildə ortaya çıxarmış oldu. Ə.Kərimliyə sual vermək lazımdır ki, ay Əli bəy, xərclədiyin bu pullar haradan gəlir və haradan qazanılır? Buyursun Ə.Kərimli cavab versin. Fakt budur ki, Ə.Kərimlinin işi-peşəsi satqınlıqla pul qazanmağa çalışmaqdır".

T.Novruzovun sözlərinə görə, xaricdə anti-Azərbaycan qüvvələr var və həmin qüvvələr də daxildə olan üzdəniraq müxalifətə maliyyə vəsaiti ayırır ki, ölkəmizdə nə isə xoşagəlməz bir vəziyyət yaratsınlar: "Belə olan halda da, müxalifətçilər xarici "ağalarından" aldıqları pul qarşılığında onların dediklərini edirlər. Amma nə xaricin, nə də ki, daxildə olan müxalifətin nə istəməsindən asılı olmayaraq, heç vaxt onların ölkəmizlə bağlı bu cür çirkin istəkləri və planları baş tutmayacaqdır. Çünki artıq xalqımız müxalifətin necə qurum olduğunu 25 il bundan qabaq görüb. Yəni müxalifət pula görə hər bir səviyyəsizliyi edib və bu gün də edir. Bir sözlə, müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa onlar da nəyə isə nail ola biləcəklər. Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni müxalifət liderləri, başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. Təəccüblü məqam odur ki, həmin liderciklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu büruzə vermək istəmirlər. Bu isə, onların faciəsidir".

***GÜLYANƏ***

# Bakıda aptekdə cibgirlik edən şəxs saxlanılıb

İctimai nəqliyyatda, həmçinin insanların sıx olduğu obyektlərdə cibgirlik edərək pul və qiymətli əşyalar ələ keçirən şəxsin saxlanılması istiqamətində Nərimanov Rayon Polis İdarəsinin (RPİ) 18-ci polis şöbəsinin əməkdaşları tərəfindən əməliyyat tədbiri həyata keçirilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şöbəyə müraciət edən zərərçəkən rayon ərazisində yerləşən apteklərdən birinə müştəri kimi daxil olan zaman cibindən naməlum şəraitdə içərisində 120 ABŞ dolları və 100 manat olan pul kisəsinin oğurlandığını bildirib.

Qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən paytaxt sakini Hüseyn Abbasov şöbə əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində saxlanılıb. Saxlanılan şəxsin aptekdə törətdiyi oğurluq əməli obyektin təhlükəsizlik kameraları vasitəsilə də anbaan lentə alınıb. Saxlanılan şəxs istintaqa verdiyi ifadəsində bu cinayəti törətdiyini etiraf edib. Qeyd edilən faktla bağlı Nərimanov Rayon Polis İdarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb, araşdırmalar davam etdirilir.

Polis əməkdaşları cibgirlik etməkdə şübhəli bilinən bu şəxsin digər analoji cinayətlərdə iştirak etdiyini də istisna etmirlər. Onun əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Daxili işlər Nazirliyinin "102" Zəng Mərkəzinə, Nərimanov RPİ və ya 18-ci polis şöbəsinə müraciət edə bilərlər.

# Vətəndaşlardan qanunsuz saxlanılan silah-sursat götürülüb

***Daxili işlər orqanları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkar edilərək götürülməsi, eyni zamanda, könüllü təhvil verilməsi məqsədi ilə əməliyyat-axtarış və profilaktiki tədbirlər davam etdirilir.***




Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aprelin 8-də əldə edilmiş məlumatlar əsasında bu istiqamətdə keçirilən uğurlu əməliyyat-axtarış tədbirləri nəticəsində Sabunçu Rayon Polis İdarəsinin 12-ci Polis Şöbəsinin əməkdaşları Bakı şəhər sakini Mikayıl Qafarovdan 1 pnevmatik tapança, 4 patron və 1 ədəd patron darağı, 42-ci Polis Bölməsinin əməkdaşları Nardaran qəsəbə sakini, əvvəllər məhkum olunmuş Fəxrəddin Hacıyevin evindən 1 ədəd nömrəsi silinmiş yivli odlu silah, süngülü karabin kəsiyi (obrez), 1 pnevmatik tapança, 2 "F-1" qumbarası, avtomata məxsus süngü bıçaq və 65 ədəd müxtəlif çaplı patron, Astara Rayon Polis Şöbəsinin əməkdaşları Ağ körpü kənd sakini İsfəndiyar Hüseynovun yaşadığı evdən 1 ədəd lülesi kəsilmiş ov tüfəngi aşkarlayaraq götürüblər.

Saxlanılan şəxslər götürülmüş maddi sübutlarla birgə istintaqa təhvil veriliblər. Faktlarla bağlı cinayət işləri başlanılıb, araşdırmalar aparılır.

# Paytaxt sakinindən 1 kiloqramdan çox marixuana götürülüb

Respublikanın daxili işlər orqanları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri uğurla davam etdirilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu istiqamətdə keçirilən tədbirlər nəticəsində külli miqdarda narkotik vasitə götürülərək qanunsuz dövriyyədən çıxarılıb.

Belə ki, Xətai Rayon Polis İdarəsinin 37-ci Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında Bakı şəhər sakini Almas Cəlilovanın rayon ərazisində yaşadığı evdə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oradan çəkisi 1 kiloqram 59 qram marixuana aşkarlanaraq götürülüb. Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

TƏRS BAXIŞ

# Əli Kərimlinin 17 yaşlı trol "gözəlçəsi"

***Zaman-zaman AXCP sədri Əli Kərimli və ətrafı haqqında çoxsaylı faktlara əsaslanan və heç də xoş olmayan məsələlər ictimaiyyətin diqqətini cəlb edib. Daha doğrusu, Ə.Kərimli sədrlik etdiyi AXCP-ni ələ keçirər-keçirməz, orada baş verən və heç bir milli-mənəvi, eləcə də, əxlaqi dəyərlərə sığmayan hadisələr bir-birini elə sürətlə əvəz etməyə başladı ki, onların sayı-hesabı belə, ölçüyəgəlməz dərəcədə artdı.***






Misal üçün, illər öncə, AXCP-nin rəsmi media qurumu olan "Azadlıq" qəzetinin sabiq direktoru Azər Əhmədovun öz qohumunun azyaşlı qızı ilə (!) intim video-görüntülərinin yayılması, adıçəkilən qəzetin baş redaktoru Qənimət Zahidin yenə də A.Əhmədovla "Üç palma" restoranının saunasında özbək fahişələrlə biabırçı fotolarının mətbuata sızması və digər onlarla bənzər faktları göstərməklə, əslində, bütün bu kimi hadisələrin bilavasitə Ə.Kərimlinin əlinin altından keçdiyini deyə bilərik. Ümumiyyətlə, sağlam düşüncəli insanların yanında Ə.Kərimli deməklə, onun barəsində "əxlaqsızlığın açarı" tipli assosiasiyalı fikirlər yaranmağa başlayır.

## Ə.Kərimli onunla olmayan müxalifətli-iqtidarlı hər kəsi söydürməklə öz çirkin, hətta murdar "siyasətini" davam etdirməkdədir

Bu arada, Ə.Kərimlinin sosial şəbəkə "qəhrəmanlıqları" da tam sürətlə davam edir. Artıq onun "söyüş qrupu" öz dairəsini genişləndirərək, Avropaya qədər gedib-çıxıb. Bu timsalda, Orduxan Teymurxan başda olmaqla, digərlərinin çıxardıqları rüsvayçı oyunbazlıqlarını göstərə bilərik. Bu istiqamətdə ictimai qınağın kütləvi şəkildə olmasına rəğmən, Ə.Kərimli onunla olmayan müxalifətli-iqtidarlı hər kəsi söydürməklə öz çirkin, hətta murdar "siyasətini" davam etdirməkdədir. Sosial şəbəkədə trolları vasitəsi ilə iyrənc kampaniyalarını davam etdirən Ə.Kərimlinin ətrafındakı trolların azyaşlı olmaları isə, bu məsələnin nə qədər çərçivədən çıxmasını sübuta yetirir. Misal üçün, Kərimlinin Fatimə Mövlamlı adlı trolu ilə birgə şəkil çəkdirməsi və həmin trolun öz səhifəsində paylaşdığı şəkilləri bir-biri ilə uzlaşdırarsaq, AXCP sədrinin belə həyat tərzinə müsbət yanaşdığını görərik...

## Ona əxlaq məfhumundan daha çox, ətrafındakı əxlaqsızlar vasitəsi ilə çoxlu pul qazanmaq daha maraqlıdır

17 yaşlı bir azərbaycanlı qızın ağzında siqaret, yaxud ayağında aqressiv döymə ilə şəkillər paylaşması, çox yəqin ki, Ə.Kərimlinin ürəyincədir. Hətta belə "xanımlar"ın onun "gözəlçələri" sırasında çox olduğunu da deyə bilərik. Maraqlıdır, görəsən, mitinqlərində "sevgili xalqım", "ulu millət" və s. tipli pafoslu ifadələrini çox sevdiyi mikrofona bağırarkən, Ə.Kərimli yaşı övladından da az olan həmin insanların keçirdikləri əxlaqsız həyat tərzini yada salırmı? Əlbəttə ki, yox. Çünki ona əxlaq məfhumundan daha çox, ətrafındakı əxlaqsızlar vasitəsi ilə çoxlu pul qazanmaq daha önəmlidir. Yəqin həmin bu F.Mövlamlı AXCP sədri ilə çəkdirdiyi və paylaşdığı fotoşəkilin üzərində "sizinlə eyni cəbhədə olmaqdan qürur duyuram, bəy" ifadəsini yazmaqla, təmsil olunduğu siyasi cəbhənin, öz timsalında, nə qədər əxlaqsız olduğunu da ifadə etdiyinin fərqinə varmayıb.

Beləliklə, hər şey bir daha məlum olub. Bu gün xalqından dəstək görməyən və bundan sonra da görməyəcək Ə.Kərimlinin bəlli "portreti" növbəti dəfə həmin ünsürün necə məxluq olduğunu bütün çılpaqlığı ilə ortaya qoyur...

***Rövşən NURƏDDİNOĞLU***

***P.S. Həqiqətən, çox maraqlıdır, görəsən, Ə.Kərimli birgə şəkil çəkdirdiyi bu qızın profilinə daxil olaraq, onun paylaşdığı qeyri-etik şəkillərə iradını bildiribmi..?***

# Aksiz markası olmayan siqaretlər müsadirə edilib

***Gömrükçülər aksiz markası olmayan siqaretləri müsadirə edib. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tovuz Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan məlumat əsasında, "Mercedes-Benz Sprinter" markalı, 90VZ649 nömrə nişanlı avtomobil Tovuz rayonu ərazisində saxlanılıb.***



Azərbaycan Respublikasının vətəndaşı Ramal Əmrahovun idarə etdiyi həmin nəqliyyat vasitəsinin yük yerinə baxış zamanı, orada siqaret olduğu müəyyən edilib. Daha sonra Tovuz Gömrük İdarəsinə gətirilən avtomobilə hal şahidlərinin iştirakı ilə təkrar baxış keçirilib.

Yoxlama zamanı, nəqliyyat vasitəsinin yük yerində olan dörd ədəd sellofan torbada cəmi 52 min 400 ədəd "Parliament Carat", "Parliament Silver", "Parliament Aqua Blue", "Parliament Super Slims", "Marlboro Gold Edge", "Marlboro Fine Touch", "Marlboro Fiter Plus" və "Sobranie Super Slims" markalı siqaret aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Müsavatın ağır durumu parçalanmaların başladığından xəbər verir

***Son vaxtlar müxalifət düşərgəsində ən çox fikir ayrılığı və qarşıdurmaları ilə seçilən Müsavat partiyasında müşahidə olunan narahatlıqlar diqqətdən kənarda qala bilməz. Hətta partiya daxilində nəzərə çarpan bu narahatlıqlar sıravi üzvlərə də sirayət edib və müxtəlif narazılıqlarla müşayiət olunur. Müsavatın hazırkı ağır durumu sıravi üzvləri belə qane etmir və məhz bu səbəbdən, yaranan narazılıqların fonunda xaos hökm sürür. Hətta bu xaotik durum parçalanmalardan da xəbər verir və partiyanın gələcəyi barədə optimist düşünməyə heç bir əsas vermir.***

## Müsavatçılar təmsil olunduqları partiyanın nüfuzdan düşdüyünün fərqindədir

Müsavat daxilində çaxnaşmalar, xüsusilə, onunla bağlıdır ki, keçirilən mitinqlərdə partiya, demək olar ki, kölgədə qalır. Mitinqlərdə, sadəcə, Müsavat partiyasından say çoxluğu məqsədilə istifadə olunur və təşkilatçılar buna nail olmasalar belə, müsavatçılar da istifadə olunduqlarının fərqindədirlər. Mövcud durum, sözsüz ki, sıravileri belə qane etmir və təzahür edən narazılıqlar da, məhz ruh düşkünlüyü ilə xarakterizə oluna bilər. Bütün mini-aksiyalar Əli Kərimlinin, o cümlədən, "Milli Şura"nın adına yazılır və təbii ki, müsavatçıları da ruhdan salan elə budur. Müsavat daxilində yaranmış vəziyyət Arif Hacılını idarəetmədə, təşkilatçılıqda və qabiliyyətsizlikdə günahlandırmaq üçün geniş imkan yaradır.

Müsavatdaxili acınacaqlı durumu xarakterizə edən "Demokratiya və Rifah Hərəkatı"nın rəhbəri Qubad İbadoğlu və onun tərəfdarları qınaq xarakterli fikirləri ilə gündəmə gəlib və partiya başqanını hədəfə alıb. Q.İbadoğlu əvvəlcədən haqlı olduğunu iddia etməklə, A.Hacılının Müsavat başqanlığına yararsız adam olduğunu isbat etmədə əsassız və başqanı qabiliyyətsizlikdə və bacarıqsızlıqda ittiham edir. Müsavat kimi tarixi keçmişi olan bir partiyanı gözdən, nüfuzdan salaraq, yararsız bir hala gətirməkdə günahlandırır Hacılını.

"Demokratiya və Rifah Hərəkatı"nın rəhbəri başqan barədə düşündüklərində, söylədiklərində haqlıdır və Hacılının rəhbərlik qabiliyyətinin olmaması səbəbindən, ictimaiyyət partiya daxilində təzahür edən hərcmərcliyin dəfələrlə şahidi olub. İstefalar, vəzifədən azad olunma halları, müavinlərin və bölgələrdəki təşkilat rəhbərlərinin itaətsizliyi, daxili narazılıqlar, çəkişmələr Müsavat daxilində ənənə halını alıb və bu cəmiyyət üçün də gizli deyil. Müsavatın fəaliyyətindən azacıq məlumatı olanlar bilirlər ki, A.Hacılı başqan təyin olunduqdan sonra idarəetmə tamamilə əldən verilib və tabesizlik, fikir ayrılıqları və parçalanmalar adi hala çevrilib. Təbii ki, bütün bunlarda günah başqanın özündədir və onun bacarıqsızlığı və rəhbərlik qabiliyyətinin olmaması vəziyyəti bu hala gətirib-çıxarıb.

Müsavatın keçmiş başqanı İsa Qəmbərin xəstəliyi ilə əlaqədar siyasi proseslərdən tamamilə kənarda qalması isə partiyada təmsil olunanların çamadan əhvali-ruhiyyəsində olmasına səbəb olub. Çünki sabiq başqanın səhhəti ilə əlaqədar partiyanı nəzarətdə saxlaya bilməməsi, hazırkı başqanın dəstəkdən məhrum olması partiya daxilində gərginliklə, həmçinin, siyasi arenada nüfuzunun heçə enməsi ilə nəticələnib. Sıravi müsavatçılar belə tərəddüd içindədir və gözdən və nüfuzdan düşməkdə olan partiyanı tərk etmək barədə düşünürlər.

## Sosial sifariş yoxdursa, AXCP və "Milli Şura" da Müsavatla bir yerdə siyasi səhnəni tərk edəcək

Müsavatın düşərgəni tərk etməsi isə, təbii ki, Ə.Kərimlinin ürəyincədir. Çünki uzun illərdir "ana müxalifət", ən vacib fiqur olmaq arzusunda olan AXCP sədri bunu özü üçün avantaj hesab edir. Ə.Kərimli üçün müxalifətin gücü, birliyi, çoxluğu tamamilə maraqsızdır və onu özündən, öz mənafeyindən, siyasi dividenddən, gəlirlərindən başqa heç nə maraqlandırmır. Bu baxımdan, müxalifətdə təmsil olunan digər partiyaların parçalanmasını, liderlərinin sıradan çıxmasını, siyasi səhnədən uzaqlaşmasını AXCP sədrinin ən böyük arzusu hesab etmək olar. Xüsusilə maraqlar çərçivəsində Ə.Kərimli bunu daha çox arzu edir. Guya ki, "ana müxalifət" olacağını zənn edən Kərimlini bu parçalanma və sıradan çıxma halları, əsasən də, ona görə qane edir ki, xaricdən alınan maliyyə yardımlarının bir neçə yerə deyil, AXCP və "Milli Şura" arasında bölünəcəyinə ümid edir. Hətta "şura"nın qondarma sədri Cəmil Həsənlinin özünü də "xərcləyən" AXCP sədri, tezliklə onu da kənarlaşdırmaqla əldə edə biləcəyi vəsaitləri tək öz əlində cəmləşdirəcəyinə də böyük ümidlər bəsləyir.

Müsavat partiyasının parçalanma, dağılma astanasında olmasını ruh yüksəkliyi, sevinclə seyr edən AXCP sədri ola bilsin dərk etmir ki, müsavatçılar təmsil olunduqları partiyanın nüfuzdan düşməsini mitinqlərdə kölgədə qalmaqla əlaqədar düşünsələr də, əslində, nüfuzun itməsinə səbəb cəmiyyətdə rolunun və sosial sifarişin olmamasıdır. Əgər Azərbaycan cəmiyyəti hazırkı Müsavat partiyasının fəaliyyətini qənaətbəxş hesab etsəydi, partiya, ən azından, acınacaqlı duruma düşməzdi. Əslində, Kərimli sevinməyə çox tələsir və bilməlidir ki, əgər səbəb sosial sifarişin olmamasıdırsa, deməli, AXCP və "Milli Şura"nın da sosial sifariş olmadığını bildiyimiz təqdirdə, onun özü də siyasi səhnəni geç-tez tərk etmək məcburiyyətindədir. Ola bilsin, AXCP və "Milli Şura" Müsavatla bir yerdə, yaxud daha tez tərk edə bilər siyasi səhnəni. Hətta belə davam edərsə, Ə.Kərimli istər xaricdə, istərsə də ölkə daxilində öz mənfur əməllərinə, məkirli siyasətinə, Azərbaycan əleyhinə fəaliyyətinə son qoymazsa, onun özü də, partiyası da, "şura"sı da ən tez zamanda tarixin zibilliyinə atılacaq və yaddaşlardan belə silinəcək.

***İnam HACIYEV***

# Seçkilərdə qadınların fəal iştirakının əsas arqumentləri

***Seçkilərdə qadınların iştirakı ilə bağlı Qərb ədəbiyyatlarında qadınların yerli səviyyədə daha fəal iştirakını əsaslandıran 5 əsas arqument önə çəkilir:***

1) eqalitarlıq, cinsi bərabərlik;

2) siyasi quruluşun legitimliyinin əsasları;

3) maraqların fərqliliyi;

4) ictiami siyasətə yeni baxış bucağı;

5) insan resurslarından daha səmərəli istifadə.

Ə.Abbasov yazır: "1) Eqalitarlıq, cinsi bərabərlik. Universal insan hüquqlarının bərabərhuquqlu gerçəkləşdirilməsi tələb edir ki, cinslərin de fakto və de yure bərabərliyi insanın əsas hüququ olmalıdır. Bu hüquq həm milli, həm də beynəlxalq qanunvericiliklərdə əksini tapıb. Qadınlar əhalinin yarısını təşkil eləyir və onlar YÖ-lər səviyyəsində də proporsional olaraq təmsil olunmalıdırlar.

2) Siyasi quruluşun legitimliyinin əsasları, nümayəndəlik demokratiyasının prinsiplərinə riayət. Demokratik şəraitdə insanları kimlərin təmsil etdiklərini və onların adından hansı qərarların verildiyinə nəzarət və araşdırılmanı nəzərdə tutur. Həm statistika, həm də araşdırmamızın nəticələri sübut edir ki, bələdiyyə siyasəti sahəsində kişilərin inhisarı var. Qadınların təmsilçiliyinin yetərincə olmaması üzündən mövcud bələdiyyə orqanlarının bütün cəmiyyətin maraqlarına cavab verməsini şübhə altına alır.

3) Maraqların fərqliliyi. Qadınlar qrup olaraq aşağıdakı səbəblər üzündən fərqli maraqlara malikdirlər: a) tarixən uzun müddət qadınlar heç bir (siyasi) hüquqlara malik olmayıblar; b) əmək sahəsində qadınlar üfüqi və şaquli istiqamətlərdə ayrı-seçkiliyə məruz qalır; c) qadınlarda işçi qüvvə istehsalı və uşaqların tərbiyəsində məsuliyyət hissinin aşılanması ailədə gender bölgüsünün əsasını qoyub. Üstəlik, gender araşdırmaları göstərir ki, qadınlar kişilərdən dahayaxşı öz obyektiv maraqlarını müəyyənləşdirə və əsaslandıra bilirlər.

4) İctimai siyasətə yeni baxış bucağı. Bu arqument bələdiyyə sisteminin özünün çərçivəsində, qərar qəbul olunmasının konsepsiya və mədəniyyəti, həmçinin, YÖ sahəsində əksini tapır. Qadınları siyasi strukturlarda iştirakı "kritik həddə" çatanda, siyasət anlayışı dəyişilir, onun ənənəvi əsaslarından uzaqlaşma baş verir və qərar qəbul olunmasının mədiyyəti dəyişikliyə uğrayır. Belə ki, artıq Avropada 30 ildən çoxdur ki, siyasi məsələ sayıla biləcək sahələrin sayı artır.

Əlavə olunan məsələlərə uşaqlara qayğı, cinsiyyət, ailə planlaması, qadınlara qarşı zorakılıq və başqalarını aid etmək olar. Kişilərin liderliyi çoxpilləliyi, avtoritarlığı, mərkəzləşdirilmə və texnokratlığı ilə fərqlənir.

5) İnsan resurslarından səmərəli istifadə. Qadın və kişələr müxtəlif təcrübəyə, biliyə və intuisiyaya malikdirlər. Bütün anlayışların nəzərə alınması daha da müəyyənləşdirilmiş və maarifçi bələdiyyə siyasətinin formalaşmasına yardımçı ola bilər.

Maraqlıdır ki, bütün sadalanan arqumentlər bizim ölkələrimiz üçün də vacibdir. Xüsusilə də, gərgin iqtisadi-sosial məngənədən çıxmaq üçün qeyri-ənənəvi qərarların qəbul olunmasını tələb edən keçid dövründə. Bundan əlavə, qadınlar kişiləri az maraqlandıran və ya heç maraqlandırmayan gündəlik problemlərin həllində maraqlı olurlar".

YÖ-də iştirakda və təmsilçilikdə möcud olan gender uçurumunu, qadınların hələ bu sahədə təzə və çox vaxt autsayder olduğunu nəzərə alanda, qadınların bələdiyyə strukturlarının qərar qəbul olunması mədəniyyətinin formalaşmasında olan müsbət rolunu qeyd etmək lazımdır.

Qadınların yerli özünüidarədəki rolunun artırılmasından danışarkən, bu sahədə mövcud olan beynəlxalq norma və konvensiyalara müraciət etmək yerinə düşər.

İnsan hüquqları üzrə ümumi deklarasiyada təsbit olunmuş və vətəndaşların öz ölkələrinin idarə olunmasında iştirakını nəzərdə tutan hüququ bir neçə sənəddə qadınlarla bağlı aydınlaşdırılıb və inkişaf etdirilib: Qadınların siyasi hüquqları haqda Deklarasiya (1952), Qadınlara münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması haqqında Deklarasiya (1967), Qadınlara qarşı bütün ayrı-seçkilik formalarının aradan qaldırılması haqqında Deklarasiya (1979) və Pekin fəaliyyət platforması (1966).

"Qadınlara qarşı bütün ayrı-seçkilik formalarının aradan qaldırılması haqqında" Konvensiya həcmcə kiçik, eyni zamanda, müfəssəl olaraq sənəddə (30 maddə) qadınların kişilərlə bərabərhüquqlu əsaslarla hakimiyyəti bölüşdürməsi kimi vacib fikir, praktiki olaraq, ilk dəfə əksini tapıb: "İştirakçı dövlətlər qadınların ölkələrinin ictimai-siyasi həyatlarında fəaliyyətinə qarşı yönələn istənilən ayrı-seçkilik formalarını aradan qaldırmağı boynuna götürür və xüsusilə də, qadınları kişilərlə eyni şərtlərdə hökumətin siyasətinin formalaşması, həyata keçirilməsi və hakimiyyət vəzifələrinə yiyələnməsi, həmçinin, bütün səviyyələrdə rəhbər vəzifələr tutması üçün lazım olan tədbirlər görməyi boynuna götürür" (II hissə, 7-ci maddə).

I hissənin 4-cü maddəsi bu hüququn həyata keçirilməsindəki qeyri-bərabərliyin aradan qaldırılması üsulunu göstərir: "İştirakçı dövlətlər tərəfindən qadın və kişələr arasında faktiki bərabərliyin bərqərar olması üçün görülən sosial tədbirlər, bu konvensiyada göstərilən qaydada ayrı-seçkilik sayılmır". Bu tövsiyə yetərincə inqilabi idi, çünki ilk dəfə olaraq, beynəlxalq sənəddə belə tədbirlərə legitim və "fəaliyyət yardımı" donu geydirilir və ya "müsbət ayrı-seçkilik" təqdir olunurdu.

Pekin fəliyyət Platformasında qadınların yerli icmalar, özünüidarə orqanları və qərarların qəbul olunması prosesində iştiraki (G bölməsi) fikri inkişaf etdirilir və qabardılırdı. Bu bölümün 181-ci bəndində deyilir: "Qadınların qərar qəbulunda iştirakı, nəinki elementar demokratiyanın və ədalətliliyin tələbidir, həmçinin, qadın maraqlarının önə çəkilməsinin vacib şərtlərindəndir." G bölümünün 181-189-cu maddələrində bu hüququn gerçəkləşdirilməsi yolunda qadınlara qarşı yol verilən ayrı-seçkiliklərin səbəblərini sadalamaqla bərabər, həmçinin, qadınların qərar qəbulu və YÖO-ların işində iştirakı üçün "müsbət fəaliyyət" və "ayrı-seçkilik əleyhinə tədbirlər" görülməsi təklif olunur. G2 bölümü qadınların qərar qəbulu və bələdiyyələrdə iştirakı ilə bağlı imkanlarının artırılmasının strateji məqsədlərini müəyyənləşdirir.

GI bölümü (Qadınların idarəetmə strukturlarına qəbulu və qərar qəbulu prosesinə cəlb edilməsi və tamhüquqlu iştirakı üçün tədbirlər görülməsi) hökumətlərə (190-cı bənd), siyasi partiyalara (191-ci bənd), BMT-yə (193-cü bənd) qadınlara qarşı qərar qəbulu prosesində ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı konkret tədbirlər görməyi təklif edir. Belə ki, BMT-yə tövsiyə edilir ki, başqa tədbirlərlə yanaşı, "Qərar qəbulu prosesində qadın və kişilərin iştirakı ilə bağlı kəmiyyət və keyfiyyət baxımından yetərincə məlumat toplamağa, həmçinin, bu differensial təsirini analiz etmək və Baş katibin nəzarəti altında 2000-ci ilə qədər qadınların idarəedici və rəhbər vəzifələri tutmasını təmin etməyi məsləhət görür".

Pekin platforması (1995-ci il) bir sıra digər beynəlxalq sənədlər kimi hökumətləri qadınların qərarların qəbul edilməsində iştirakının monitorinqini aparmağa çağırır. Hesab edilir ki, bu qadınların dövlət və yerli özünüidarəetmədə iştirakını təmin edir. Bu o deməkdir ki, göstərilən sahədə mövcud olan statistika cəmiyyət və ilk növbədə qadınlar üçün açıq olur.

Bizim apardığımız araşdırmalar qadınların yerli özünüidarəetmə orqanlarının az təmsil olunmasının səbəblərini, bələdiyyələrin işində qadınlarının motivasiyasını, bu sahədə qadın liderliyinin özəlliyini araşdırmağa imkan verir. Əvvəlcə icra hakimiyyətlərində qadınların sayına toxunaq. Paytaxtlarda yerli özünüidarəetmə orqanlarında işləyən qadın deputatlar Bakıdakı deputatların -ümumi sayının 5,3 faizini təşkil edir. Tbilisidə bu göstərici 7,9 faizdir. Hər iki ölkənin rayonlarında isə bu göstərici təxminən 2% səviyyəsindədir. Bizim respublikalarda tipik qender piramidası mövcuddur -qadınlar idarəetmənin yalnız aşağı və orta təbəqələrində təmsil olunurlar, ən yüksək dairələrdə, demək olar ki, qadın yoxdur. Yeni şəraitdə qadınlar bələdiyyə hakimiyyətinə təsir göstərmək üçün qeyri-hökumət təşkilatlarına daxil olurlar. Lakin onlar yerli özünüidarəetmə orqanlarının strukturlarında fəal deyillər. Müqayisə üçün: Avropa İttifaqı ölkələrində qadınlar yerli özünüidarəetmə orqanlarında orta hesabla 43%, Nazirlər Kabinetində isə 16% səviyyəsində təmsil olunublar. Üç Skandinaviya ölkəsi bələdiyyə orqanlarında qadınların təmsil olunmasına görə ən yaxşı göstərici əldə edib (43-60%). Skandinaviya ölkələrindən sonrakı yerləri Niderland, Almaniya və Avstriya tuturlar. Avropa İttifaqının üzvü olmayan Norveçdə qadınlar bələdiyyə orqanlarında 39% səviyyəsində təmsil olunublar.

Bu göstəricilərin təhlili sübut edir ki, bələdiyyə orqanlarında qadınlara qarşı diskriminasiya siyasəti həyata keçirilir. Təhlil zamanı biz tədqiqatçıların qarşısında aşağıdakı suallar meydana çıxırdı:

*Demokratik kimi görünən islahatlar zamanı qadınların bələdiyyə qurumlarında mənfi dinamikasını doğuran nə idi?

*Bələdiyyə orqanlarının rəhbərliyində qadınların sayı niyə azdır - qadınlar özləri bunu istəmirlər, yoxsa onları bu strukturlara buraxmırlar? Qadınlar yerli hakimiyyətinin qərarları qəbuletmə mədəniyyətini dəyişdirə bilirlərmi? Onlar yerli hakimiyyətin həyata keçirdiyi tədbirlərə təsir göstərirlərmi?

Bu və digər suallara individual və institusional faktorlar kontekstində aparılan müsahibələrin təhlili cavab verməyə kömək edir. İnstitusional faktorlar sırasına siyasi ab-hava, daha konkret isə korporatizmin səviyyəsi, seçki sistemi, hakim ideologiya, namizədin seçilməsi proseduru, qadınların siyasətə inteqrasiyası, səsvermə proseduru və vəzifəyə təyin edilmə daxildir. İndividual faktorlar sırasına isə qadınların bir individium kimi sosiallaşmasını təmin edən cəmiyyətin özünün xarakteristikası daxildir. Bundan əlavə, individual faktorlar cəmiyyətin siyasi təşkilatlanmasını, təhsilin səviyyəsini, professional təcrubəni, qadının həyat yoldaşı və ana kimi statusunu, gender və siyasi sosiallaşmanın qadınlara psixoloji təsirini və s. nəzərdə tutur. Seçki kampaniyaları zamanı, seçicilərin siyasi aktivliyi artdıqda və ya azaldıqda individiumun sosiallaşması və ya resosiallaşması baş verir. Müsahibələrin təhlili göstərir ki, bələdiyyə seçkiləri zamanı aktivlik və sonradan onların fəaliyyəti son nəticədə mahiyyət etibarilə sorğuya cavab verənlərin resosiallaşmasına, yəni yerli özünüidarəetmə ideyasının özünün, birmənalı olaraq, rədd edilməsinə gətirib çıxarıb. Seçilmiş qadın-deputatlar üçün deputatlıq nədir? Onlar yerli səviyyədə siyasətin formalaşmasına təsir göstərə bilirlərmi? Qadın maraqlarını qorumaq mümkün olubmu? Təəssüf ki, hələ bu suallara müsbət cavab vermək mümkün deyil.

Müsahibələrin təhlili göstərir ki, yerli özünüidarəetmə orqanlarının yaradılmasının nə əvvəlində, nə də sonrakı bir neçə ildə hər iki respublikanın paytaxtında işləyən qadın-deputatlar "qadın maraqları"nı dəqiq müəyyənləşdirən siyasi xətt hazırlamayıblar. Qadınların maraqlarının formalaşdırılması və lobbiləşdirilməsi üçün qadınların cəmiyyətdə diskriminasiya edilməsi faktının başa düşülməsi kifayət deyil. Qadınlar müsahibələr zamanı özlərinin, nəinki cəmiyyətdə, həm də professional karyeralarında da diskriminasiya edildikllərini deyirlər. Lakin gender mədəniyyəti, hələ ki, ictimai düşüncənin tərkib hissəsi olmayıb.

Qadın maraqlarının formalaşdırılması üçün bələdiyyələr vasitəsilə siyasi mobilizasiya hələ gündəlikdə aktiv deyil, lakin ilk presendentlər artıq mövcuddur. Məsələn, Bakının Yasamal rayon bələdiyyəsi yanında qadın təşkilatlarının yaradılması və ya ənənəvi qadın təşkilatlarına yeni məna verilməsi cəhdləri edilir.

Bəzi istisnalar çıxılmaq şərtilə qadınlar yerli özünüidarəetmə sahəsində görünməz qalırlar. Bunun səbəbi qadının ev işlərinin həddindən artıq çox olması, siyasətə marağın olmaması, cəsarətin çatışmaması və ya hamının gözü qarşısında olan fiqur olmaqdan təhlükələnməsidir. Görünür, əvvəlki rejim zamanı siyasi sosiallaşmanın xarakterlə, qadınların siyasətdə anonim və formal iştirakı burada da özünü göstərir.

Qadınların hüquqi biliklərinin az olması onların bələdiyyə orqanlarına daxil olmasına maneçilik göstərən digər faktordur. Qadınların əksəriyyəti yerli özünüidarəetmə qanunvericiliyilə, eləcə də, qadın hüquqlarına dair beynəlxalq və yerli sənədlərlə tanış deyillər. Yerli səviyyədə yeni qanunvericiliyin hazırlanmasında və hazır layihələrə dəyişikliklər edilməsində iştirakı təmin edə biləcək mexanizmlər mövcud deyil. Yerli özünüidarəetmə orqanlarının işində gender qeyri-bərabərliyinin olmadığı anlayışı, hələ ki, özünün təşkilati formasını tapmır.

Yerli özünüidarəetmə orqanlarına seçkilər "maraqların artikulyasiyası mexanizmi" kimi nə Azərbaycanda, nə də Gürcüstanda qadın maraqlarını əks etdirmir. Buna görə də, seçkiləri institualllaşma və sosial konfliktin, bizim nəzərdən keçirdiyimiz halda, gender konfliktinin həlli yolu kimi qəbul etmək mümkün deyil.

Qeyd etmək lazımdır ki, bələdiyyələr sosial siyasət məsələlərini həll edərkən, yerli layihələri həyata keçirərkən, qadınların həyatına müsbət təsir göstərən qərarlar qəbul edirlər (uşaqlar üçün təqaüdlərin vaxtında ödənilməsi, əşya və ərzaq bazarlarının saxlanılması). Lakin ənənəvi qadın gündəliyinin ona reproduktiv hüquqlar, qadılara qarşı zorakılıq, qadın işsizliyi barədə məsələlərin salınması hesabına artırılması barədə danışmaq hələ mümkün deyil.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 10 aprel


## Ana ətri körpə üçün əvəzolunmazdır

Statistikaya görə, passiv həyat sürənlər gün ərzində 18 min, fəal həyat sürənlər isə 23 min dəfə nəfəs alır və hər dəfə nəfəs alınanda müxtəlif iylər duyulur. Lakin elə xüsusi qoxu var ki, onu yalnız körpələr hiss edir. Ana və övladı bir-birinə məhz belə bir qoxu bağlayır.

AZƏRTAC xəbər verir ki, K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, Səhiyyə Nazirliyinin baş pediatrı, professor Nəsib Quliyev körpə ilə ana arasındakı həmin ətri çox əhəmiyyətli hesab edir: “Yeni doğulan körpə dünyaya gələn andan anasını tanımaq qabiliyyətinə malik olur. Doğulan andan uşaq ana ilə birlikdə olmalıdır. İndiki təlimat ondan ibarətdir ki, uşaq gün ərzində ən çoxu bir saat yarıma qədər anasından kənarda qala bilər”.

Yeni doğulan körpələrdə noradrenalin hormonu yüksək səviyyədə olur və uşaq öz hissiyyatlarından daha yaxşı istifadə etməyə başlayır. Həmin hal körpənin dünyaya göz açdığı bir neçə saat ərzində müşahidə edilir. Pediatrlar ana qoxusunu körpənin inkişafı üçün vacib hesab edir. Analar yeni doğulan körpəni başqalarının himayəsinə buraxmamalıdır, çünki körpə ananın iyini hiss etməsə narahat olur, nəticədə yuxusuz, uzunmüddətli ağlamalar, hətta süddən imtina etmə halları yarana bilər.

Baş pediatrın dediyinə görə, zahı qadın süni vasitələrdən istifadə etməməlidir. Kosmetik vasitələr, spreylər və digər vasitələrdən istifadə edilməsi körpənin anadan uzaqlaşmasına, süddən imtinaya və bəzən də allergik vəziyyətlərin yaranmasına səbəb olur.

## Narıngi haqqında bilmədikləriniz

Narıngi 4 metrə qədər hündürlüyə yüksələ bilən həmişəyaşıl ağacın meyvəsidir. Narıngi ağacının yarpaqları sərt, sivri uca malik olub, kiçik ölçülü, ellips və ya yumurta formasında olur. Narıngi meyvələri 4-6 sm diametrə malik olub, narıncı rəngdə qalın və asan soyula bilən qabığa malik olur. Narıngininin gözəl ətri və dadı olur.

Narıngininin vətəni Çin və Koxinxin hesab edilir. Avropa ölkələrinə naringi XIX əsrin əvvəllərində gətirilib. İndi İspaniyada, Əlcəzairdə, bütün Aralıq dənizi sahili ölkələrində, Çində, Fransada, Yaponiyada geniş miqyasda narinci yetişdirilir. MDB ölkələrinə əsasən naringi əsasən Argentinadan, Çindən gətirilir. Bizim ölkəmizin də Cənub bölgəsində yetərində naringi yetişdirilir. Ən yaxşı naringi növü böyük ölçüyə malik olan naringilər hesab edilir. Ondan daha şirəli, daha dadlı olurlar. Narıngini dərdikdən sonra ev şəraitində 1 ay saxlamaq mümkündür. Soyuducuda isə onun uzun müddət saxlanılması mümkündür.

Narıngininin tərkibi təbii turşularla zəngindir. Onun şirəsinin tərkibində limon və digər meyvə turşuları, vitaminlər (A, D, K, B4, tiamin, riboflvin, rutin, askorbin turşusu), fitonsidlər var. Narıngininin qabığı efir yağları ilə zəngindir. Bu yağların tərkibində çoxlu A vitamini və karotin, naringiyə sarı rəng verən maddələr var. Narinğinin tərkibi kalium, kalsium, maqnium, dəmir, fosfor və natriumla zəngindir. 100 qram naringidə 55-57 qram su və 53 kkalori var. Narıngi qiymətli dietik məhsul hesab edilir. O maddələr mübadiləsini yaxşılaşdırır, davamlı olaraq yedikdə orqanizmi möhkəmləndirir. Narıngidən salatların, şirniyyatların, desertlərin hazırlanmasında geniş istifadə edilir. Ondan hazırlanan içkilər və konfetlər isə dünanın hər yerində süfrələrin bəzəyidir. Narıngini yeyərək siz, orqanizminizi möhkəmləndirə bilərsiniz.

**Naringinin Ziyanı**

Naringini çox yedikdə bəzən mədə-bağırsağın selikli qişasında və böyrəklərdə qıcıqlanmalar meydana çıxır. Bu ən çox mədə-bağırsaq yarasından əziyyət çəkən xəstələrdə baş verir. Kəskin nefrit, kəskin pankreatit xəstəliyindən də əziyyət çəkənlərə də naringi yemək məsləhət deyil. Allergiyadan da əziyyət çəkənlərə çoxlu miqdar naringi yemək məsləhət deyil.

## ELAN

Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin əməkdaşı Abbasov İbrahim Calal oğlunun xidməti vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin IV kurs tələbəsi Nəsirova Reyhanə Əhliman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

Gigiyena və Epidemologiya Mərkəzinin direktoru İsmayılov Abbasqulu kollektiv adından Səhiyyə nazirinin müavini

**Vəlibəyov Abbas Soltan oğlunun**

vəfatından kədərləndiyini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin***

## “Paytaxt sakinləri Formula 1 yarışı ərəfəsində trek ətrafında maneəsiz hərəkət edə biləcəklər”



Paytaxt sakinləri Formula 1 Azərbaycan Qran-Prisi ərəfəsində trek ətrafında maneəsiz hərəkət edə biləcəklər. Bunun üçün yarış həftəsi ərzində trek ərazisində yerləşən daimi yeraltı keçidlər gün boyu açıq olacaq. Həmçinin piyadalar trekin müəyyən yerlərində quraşdırılacaq müvəqqəti yerüstü keçidlərdən də istifadə edə biləcəklər. AZƏRTAC xəbər verir ki, bu sözləri aprelin 9-da “Bakı Şəhər Halqası” Əməliyyat Şirkətinin marketinq və kommunikasiya şöbəsinin rəhbəri, milli mətbuat katibi Nigar Arpadarai deyib. N.Arpadarai bildirib ki, nəqliyyatın hərəkətinin qadağan olunduğu ərazilər üç zonaya ayrılır. Birinci zonaya trekin əhatə etdiyi İçərişəhər, ikinci zonaya Azadlıq meydanı və onun yaxınlığında yerləşən digər ərazilər aiddir. Üçüncü zona isə BMT-nin 50 İlliyi küçəsini əhatə edir. Əlaqədar qurumlar tərəfindən bu ərazilərdə yaşayan sakinlərə, kirayənişinlərə və işgüzar fəaliyyətlə məşğul olanlara bütün zonalara giriş üçün eyni icazə sənədi təqdim olunacaq. İcazə sənədi yalnız Formula 1 Azərbaycan Qran-Prisi zamanı yol məhdudiyyətlərinin tətbiq edildiyi müddət (aprelin 23-dən mayın 1-dək) üçün etibarlıdır. İcazə sənədini aprelin 12-dən 23-dək “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, 4 və 58 saylı mənzil kommunal istismar sahələrindən almaq mümkündür. Qeyd edilib ki, icazə sənədi nəqliyyat vasitəsinin ön şüşəsinin sağ tərəfinin aydın görünən aşağı hissəsinə yerləşdirilməlidir. İtirilmiş, oğurlanmış və ya yararsız hala düşmüş sənəd yenisi ilə əvəz olunmayacaq. Yarış ərəfəsində yalnız icazə sənədinə sahib nəqliyyat vasitələri bu zonalara buraxılacaq və onların istənilən zonaya daxil olmasına icazə veriləcək.

“Bir və ikinci zonalarda nəqliyyatın hərəkətinə ancaq gecə vaxtı 00:00-dan 06:00-dək icazə veriləcək. Üçüncü zonada isə nəqliyyatın hərəkətinə gün ərzində giriş imkanı olacaq. İcazə sənədi olan avtomobillər istənilən vaxt bu zonaya daxil ola biləcəklər. Birinci zonaya giriş Azneft dairəsi, ikinci zonaya giriş Rəşid Behbudov küçəsi, üçüncü zonaya giriş isə Lermontov küçəsi (Şəlalələr parkı) tərəfdən olacaq”, - deyə N.Arpadarai əlavə edib. Bu il konsert və əyləncə proqramlarının “Baku Crystal Hall”da keçirilməsi ilə əlaqədar Azneft dairəsindən Dövlət Bayrağı Meydanına qədər yolda nəqliyyatın hərəkətinin məhdudlaşdırılacağını vurğulayan N.Arpadarai deyib ki, yalnız yuxarıda qeyd olunan icazə sənədinə sahib nəqliyyat vasitələri bu əraziyə buraxılacaqlar.

## Azərbaycan cüdoçusu Antalya Qran-Prisinin qalibi olub



Azərbaycan cüdoçusu Zelim Kotsoyev (100 kq) Antalya Qran-Prisinin qalibi olmaqla, turnirdə birinci və yeganə qızıl medalı ölkəmizin komanda aktivinə yazıb. O, finalda Rusiya cüdoçusu Armen Adamyan üzərində vaxtından əvvəl qələbə qazanıb. AZƏRTAC xəbər verir ki, Məmmədəli Mehdiyev və Tural Səfquliyev (hər ikisi - 90 kq) reytinq startının sonuncu günü öz hesablarına bürünc medal yazdırıblar. Z.Kotsoyev ilk iki qarşılaşmada koreyalı Qu-Xam Ço və özbək Məhəmmədkərim Hürrəmova ipponla qalib gəlib. Daha sonra “vadza-ari” qiymətləndirilməsi ilə İrlandiya cüdoçusu Bencamin Fletçer üzərində qələbə qazanan Zelim yarımfinalda rusiyalı Niyaz İlyasovu təmiz qələbə ilə məğlub edib. Rusiyanın digər idmançısı - Armen Adamyanla həlledici qarşılaşmada idmançımız iki dəfə “vadza-ari” fəndindən xal qazanıb. Yekunda təmiz qələbə və qızıl medal əldə edilib. Məmmədəli Tağıyev və Tural Səfquliyevin (hər ikisi - 90 kq) yarımfinala yolları oxşar olub - hər iki cüdoçumuz təmiz tullama ilə qalib gəlib. Məmmədəli braziliyalı Qustavo Assis və israilli Li Koçmanı, Tural isə İsrail idmançısı Asaf Çen və monqolustanlı Altanbaqana Qantulqanı üstələyib. Yarımfinalda üç xəbərdarlıq alan Mehdiyev Tacikistan idmançısı Komronsox Ustopriona məğlub olub. Səfquliyev isə serbiyalı dünya çempionu Nemanye Majdovun öhdəsindən gələ bilməyib. Lakin kiçik finallarda cüdoçularımız şanslarını əldən verməyiblər: Səfquliyev “vadza-ari” qiymətləndirilməsi hesabına israilli Li Koçmana qalib gəlib, Mehdiyev isə braziliyalı Rafael Maçedo ilə qarşılaşmada ippon qazanıb. 100 kiloqramdan yuxarı çəki kateqoriyasında mübarizə aparan Şahin Qəhrəmanov ilk döyüşdə Rusiyadan olan İnal Tasoyevə təmiz tullama ilə uduzub.

## Azərbaycanlı hakim Avropa çempionatının final mərhələsinin oyunlarına təyinat alıb



Azərbaycanlı futbol hakimi UEFA tərəfindən yeni təyinat alıb. FIFA referi köməkçisi Rza Məmmədov 17 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının final mərhələsinin oyunlarını idarə edəcək. Final mərhələsinin oyunları mayın 4-dən 20-dək İngiltərədə keçiriləcək.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**